www.paralel.az

# Paralel

İctimai-siyasi qəzet

13
iyul
2023-ci il

№ 063 (3632)
Qiymәti 50 qәpik

Gün-Xəbər



## Prezident N.Kurtulmuşu qəbul edib

İyulun 12-də Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuşu qəbul edib.

N.Kurtulmuş Türkiyə prezidenti R.T.Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırıb. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirib, onun da salamını Ərdoğana çatdırmağı xahiş edib. Dövlət başçısı Türkiyədə keçirilmiş prezident və parlament seçkilərində qələbə münasibətilə bir daha təbriklərini çatdırıb.

Görüşdə Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə, o cümlədən parlamentlərarası sahədə uğurla inkişaf etdiyi məmnunluqla vurğulanıb. Numan Kurtulmuşun səfərinin əlaqələrimizin inkişafına töhfə verəcəyi qeyd olunub. Söhbət zamanı Türk Dövlətləri Təşkilatının daha da gücləndirilməsinin, bu təşkilat və TÜRKPA formatında əməkdaşlığın möhkəmləndirilməsinin vacibliyi vurğulanıb.

## Türkiyə Azərbaycanda hərbi baza yerləşdirir



*"Türkiyə Azərbaycanda hərbi bazalarını yerləşdirməyə hazırlaşır".*

Bunu erməni politoloq Stepan Danielyan deyib.

Onun iddiasına görə, Rusiya-Türkiyə anlaşması pozulmağa başlayıb: *"Türkiyə "Azov" komandirlərini Ukraynaya təhvil verdi. İndi də Türkiyədən Ukraynaya ağır artilleriyanın göndərilməsi, "Bayraktar" zavodunun inşası imkanları müzakirə olunur. Üstəgəl, Türkiyə İsveçin NATO-ya daxil olmasına razılıq verdi, həmçinin Azərbaycanda üç hərbi bazasını yerləşdirməyə hazırlaşır. Bunlardan biri Xəzər dənizinin sahilində olacaq. Bayden isə Türkiyəyə F-16 sözü verib",* - Danielyen bildirib.

# Sülhməramlılar 2025-ci ildə Qarabağı tərk edəcək




«2025-ci ilə qədər Rusiya təyin olunmuş yerlərdə qalacaq, həmin ildə isə bu yerləri tərk edəcək.»

Bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan NATO liderlərinin sammitindən sonra keçirilən mətbuat konfransında azərbaycanlı jurnalistin Qarabağda Rusiya sülhməramlılarının yerləşdirilməsi ilə bağlı sualını cavablandırarkən deyib. Türkiyə Prezidenti Rusiyanın bu razılaşmaya sadiq qalacağına inandığını vurğulayıb. *"Qardaşım Əliyev (Azərbaycan Prezidenti İlham Əliyev-red) zatən bunu diqqətlə izləyir",* - Ərdoğan əlavə edib.

## Azərbaycanın xarici siyasəti müsbət nəticə verir



**Cənubi Qafqazda isə müharibə təhlükəsi qalır**

Səh.3

## Dünyaya gəlişi istənməyənlər...



**Və onları sevmək cəsarəti olanlar**

Səh. 4

## Heyif, pulumuz yoxdur ki...



**Fəslin gözəlliyindən bəhrələnək**

Səh. 5



## Tehran Moskvaya etirazını bildirib

**Fars körfəzi ilə həmsərhəd olan ərəb ölkələrinin və Rusiyanın Fars körfəzinin üç adasında hökmranlıq üçün "BƏƏ-nin səylərini" dəstəklədikləri barədə bəyanatından sonra İran Xarici İşlər nazirliyi Rusiyanın Tehrandakı səfirini izahat üçün çağırıb.**

İRNA dövlət agentliyi bildirir ki, Rusiya səfirinə İranın bu bəyanata *"etirazı"* çatdırılıb. İranın Xarici İşlər nazirliyinin Fars körfəzi işləri üzrə baş direktoru və nazir köməkçisi Əlirza İnayəti üç ada məsələsi ilə bağlı Rusiyanın öz mövqeyini düzəltməyi tələb edib.

İran Xarici İşlər naziriyini şözçüsü Nasir Kənani də Moskvada keçirilən Fars Körfəzi Əməkdaşlıq Şurası və Rusiya Xarici İşlər nazirlərinin altıncı iclasının yekun bəyanatına da münasibət bildirib.

*"Nazirlər BƏƏ təşəbbüsü və ikitərəfli danışıqlar yolu ilə üç ada—Böyük Tunb, Kiçik Tunb və Əbu Musa məsələsinin sülh yolu ilə həllinə nail olmaq səyləri də nəzərə alınmaqla, bütün dinc səyləri dəstəklədiklərini bir daha təsdiq etdilər. Amma bu adalar əbədi olaraq İrana məxsusdur və bu cür bəyanatların verilməsi İran və onun qonşuları arasında dostluq münasibətlərinə ziddir. İran mehriban qonşuluq və qarşılıqlı hörmət siyasətinin davam etdirilməsini vurğulayaraq, regionun inkişafı və sabitliyini region ölkələrinin kollektiv məsuliyyəti hesab edir"*, - Kənani deyib.

Qeyd edək ki, dünən Rusiyada Fars Körfəzi Əməkdaşlıq şurasına üzv ölkələrin xarici işlər nazirlərinin 6-cı iclasının nəticələri barədə yekun bəyanatda İranı ıcıqlandıran bu məsələ ehtiva olunub.

# Qriqoryandan Zəngəzur dəhlizi açıqlaması

*"Səfər əsasən ikitərəfli xarakter daşıyır və Ermənistanla ABŞ arasında münasibətlərin geniş spektrini əhatə edir"*.

Teleqraf.com xəbər verir ki, bunu Emənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan ABŞ səfərinin səbəbləri barədə danışarkən deyib.

Onun sözlərinə görə, əlaqələrin dərinləşdirilməsi və yeni mövzuların daxil edilməsi üçün yaxşı imkan var.

Ermənistanla Azərbaycan arasında sülh danışıqları ilə bağlı sualı cavablandıran Qriqoryan vurğulayıb ki, bütün danışıqlar bir-birini tamamlayır və gündəm demək olar bütün yerlərdə eynidir. O qeyd edib ki, ABŞ-ın regionda iştirakı sabitliyin təmin olunmasına kömək edir və İrəvan Vaşinqtonun danışıqların irəliləyişində səylərini yüksək qiymətləndirir.

*"Əlbəttə, hələ də həllini tapmamış problemlər var, amma açıq şəkildə deyə bilərəm ki, İrəvan sülh gündəmində qətiyyətlidir və sabit sülh sazişinin tezliklə imzalanmasında maraqlıdır"*.

Qriqoryanın sözlərinə görə, danışıqlar prosesində hələ də öz həllini tapmayan çoxlu problemlər var. Onun fikrincə, ən mühüm məsələlərdən biri də SSRİ Baş Qərargahının 1975-ci il xəritəsi əsasında sərhədlərin dəqiqləşdirilməsi ilə əlaqəlidir. Qriqoryan qeyd edib ki, xəritə ilə bağlı hələ də yekun razılaşma yoxdur, amma bu yöndə iş aparılır. Bundan əlavə, o, erməni xislətinə sığınaraq Qarabağla bağlı separatçı tezislərini təkrarlayıb. *"Xankəndi-Bakı dialoqu"* sayıqlamasını təkrarlayan Qriqoryanın sözlərinə görə, beynəlxalq mexanizmlər yaratmaq lazımdır ki, bu *"format"*da Qarabağ ermənilərinin təhlükəsizliyi və hüquqları müzakirə edilə bilsin.

Qriqoryanın iddiasına görə, Ermənistanın Azərbaycana qarşı ərazi iddiası olmayıb. O, bununla bağlı "Qarabağ problemi heç vaxt ərazi problemi olmayıb" fikrini



səsləndirib və qeyd edib ki, uzun müddətdir danışıqların aparıldığı konsepsiya, yəni Qarabağda yaşayan ermənilərin təhlükəsizliyi və hüquqları ərazi məsələsi deyil.

*"Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Praktikada belədir. Bizim həyata keçirmək istədiyimiz yeganə müzakirə, qeyd etdiyim kimi, Qarabağda yaşayan ermənilərin təhlükəsizliyi və hüquqları ilə bağlı Xankəndi ilə Bakı arasında aparılan müzakirələrdir. Bu baxımdan hesab edirəm ki, irəliləyiş olarsa, heç bir ərazi problemi olmayıb və olmayacaq"*, - Ermənistan rəsmisi deyib.

*"Beynəlxalq mexanizm"* sayıqlamasına gəlincə, Qriqoryan bildirib ki, bunu deyəndə İrəvan ilk növbədə Qarabağ erməniləri ilə Bakı arasında gedən və beynəlxalq ictimaiyyətin iştirak etdiyi danışıqlar nəzərdə tutur. O, bu kontekstdə Laçın yolunda *"beynəlxalq mövcudluq"* axmaqlığını da dilə gətirib.

Qriqoryan vurğulayıb ki, son vaxtlar Vaşinqton, Brüssel və Moskvada Ermənistanla Azərbaycan arasında fəal danışıqlar gedir: *"Bütün istiqamətlər üzrə işlər aparılır"*.

Ermənistan rəsmisi Rusiya sülhməramlılarından da şikayətlənib və qeyd edib ki, ruslar Qarabağ ermənilərinin gözləntilərini doğrultmurlar.

Kommunikasiya xətlərinin (Zəngəzur dəhlizi) açılması məsələsinə toxunan Qriqoryan Ermənistanın bu məsələdə rəhbər tutduğu *"üç prinsip"*i qeyd edib. Bunlar suverenlik, yurisdiksiya və qarşılıqlılıqdır.

*"Ermənistan üçün blokada çox vacibdir. Bu məsələdə ən çox Ermənistan maraqlıdır. Blokadanın qaldırılması "erməni qovşağı" konsepsiyasının həyata keçirilməsi demək olacaq"*, - Təhlükəsizlik Şurasının katibi əlavə edib.

Qriqoryanın sözlərinə görə, kommunikasiyaların açılması Ermənistana əlavə gəlir gətirəcək və iqtisadi fəaliyyət üçün əlavə təhlükəsizlik təminatları yarada bilər.

# "Oskanyanın on il vaxtı olub..."

## Paşinyan hökuməti sabiq XİN başçısına cavab verdi

**Ermənistanın sabiq Xarici İşlər naziri Vardan Oskanyan bir neçə gün əvvəl xüsusi təkliflə çıxış edib. O, təklif edib ki, özü başda olmaqla, bir qrup erməni diplomatından ibarət qrup yaradılsın və bu qrupa Azərbaycanla danışıqlar aparmaq səlahiyyəti verilsin.**

Oskanyan iddia edib ki, həmin qrup 3 ay ərzində Azərbaycanla danışıqların istiqamətini dəyişə və uğurlar əldə edə bilər. Sabiq XİN başçısı həmçinin tələb edib ki, həmin 3 ay ərzində Nikol Paşinyan Azərbaycanla danışıqlar mövzusunda heç bir açıqlama, bəyaant verməsin.

Oskanyanın təklifini Ermənistan mətbuatına şərh edən Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan bu təklifin mənasız və mümkünsüz olduğunu deyib: *"Oskanyanın bunu etmək üçün on il(vəzifədə olarkən) vaxtı olub. On ilə etmədiyini üç ayda necə edə biləcək? Hardan əminlik var ki, ikinci dəfə o, bunu edəcək, özü də müəmmalı adamların köməyi ilə..."*



Qriqoryan bildirib ki, Oskanyanın təklifi dövlətin içərisində ikinci dövlət yaratmaq mənasını daşıyır və çox qeyri-ciddi yanaşmanı əks etdirir.



## Elmin «bazarkomları»

**Elmi adların verilməsində qanunsuz hallara yol verən vəzifəli şəxs cinayət məsuliyyətinə cəlb olunub.**

Baş Prokurorluqdan verilən xəbərə görə, Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən keçirilmiş əməliyyat-axtarış tədbirləri çərçivəsində Ali Attestasiya Komissiyasının İqtisad elmləri üzrə Ekspert şurasının üzvü – elmi katibi Şəfa Əliyevin qanunsuz əməlləri ifşa edilib.

Əməliyyat-istintaq tədbirləri ilə Şəfa Əliyevin işlədiyi qurumun vəzifəli şəxslərinin qərarlarına həqiqi təsir imkanlarından istifadə edərək müxtəlif şəxslərdən aldığı pul vəsaitləri müqabilində onlara elmi dərəcələrin verilməsinə nail olması və vəzifə səlahiyyətlərindən sui-istifadə etməsinə əsaslı şübhələr müəyyən edilib.

Hazırda iş üzrə qanunazidd hərəkətlərə yol vermiş digər şəxslərin müəyyən edilməsi istiqamətində əməliyyat-istintaq tədbirləri davam etdirilir.

Qeyd edək ki, Ş. Əliyevin professor elmi dərəcəsi var.

## "Spred yağlarını kərə yağı adı ilə satırlar"

***"Respublikaya idxal olunan bütün yağlar yüksək riskli məhsullar kateqoriyasına aiddir. Həmin müəssisələrin tərəfimizdən qeydiyyatına icazə verildikdən sonra onların məhsullarının idxalına icazə veriləcək".***

Bunu Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli "Qida təhlükəsizliyi haqqında" Qanunun icrası ilə əlaqədar 2023-cü ilin 6 ayı ərzində görülmüş tədbirlərə dair mətbuat konfransında deyib. Onun sözlərinə görə, bir sıra hallarda məhsullar, o cümlədən yağlar barədə qarayaxma kampaniyaları həyata keçirilir.

***"Yağ məhsullarının idxalı və ya satışının monitorinqi tərəfimizdən daim aparılıb. Ticarət şəbəkələrində satış həyata keçirən şəxslər yağlar barədə alıcıya doğru məlumat vermir və aldadırlar. Onlar spred yağlarını kərə yağı adı ilə təqdim edirlər. Əmin etmək istəyirəm ki, respublika ərazisinə keyfiyyət və təhlükəsizlik göstəricilərində problem olan məhsul buraxılmır. Dövlət nəzarəti tam təmin olunur".***

# Ərdoğan Putinlə "Azov" komandirlərinin ekstradisiyasını müzakirə edəcək

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Rusiya lideri Vladimir Putinlə "Azov" komandirlərinin Ankaranın Kiyevə ekstradisiyası ilə bağlı vəziyyəti müzakirə etməyi gözləyir.**

Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Vilnüsdə NATO sammitindən sonra keçirilən mətbuat konfransında deyib.

*"Biz onların 6 komandirinin azad edilməsi ilə bağlı müraciət aldıq. Müsbət cavab vermək qərarına gəldik. Bundan sonra Rusiyada bir sıra bəyanatlar verildi, lakin onlar təfərrüatları öyrəndikdən sonra vəziyyət müsbət oldu. Avqust ayında Putin Türkiyəyə səfər edəcək və düşünürəm ki, onunla bu məsələləri yenidən təkbətək formatda müzakirə etmək imkanımız olacaq",* - Türkiyə lideri vurğulayıb.



# Martiros Jamkoçyan: "Monte Melkonyan İranla əməkdaşlıq edirdi"

ASALA terrorçusunun etirafı

Erməni terrorçusu, ASALA-nın keçmiş üzvü Martiros Jamkoçyan İrəvanın Yerablur məzarlığında olarkən "Hraparak" qəzetinə müsahibə verib və orada terrorçu və cani Monte Melkonyanla İran xüsusi xidmət orqanları arasında əməkdaşlıq faktlarını açıqlayıb.




Xatırladaq ki, Melkonyan 1993-cü ilin iyununda Azərbaycanın Ağdam rayonunun Mərzili kəndində Azərbaycan hərbçiləri tərəfindən məhv edilib.

- "Qubadlının azad edilməsindən" (Qubadlının işğalı 1993-cü il avqustun 31-də baş verib, o zaman Monte Melkonyan artıq məhv edilmişdi – red.) əvvəl farslar Monteyə zəng etdilər, onunla hesablaşırdılar. Bu bir sirdir və mən onu bu gün sizə açıram. Farslar Monte ilə görüşmək üçün Qorisə (Gorus – red.) gəldilər, onlar əməliyyatın hazırlanmasından xəbərdar idilər. Həmin vaxt biz Laçın şəhərində idik, oradan Zəngilana, Qubatlıya (Qubadlıya – red.), Horadizə hücum etmək üçün tank diviziyamızın bir hissəsini buraya gətirmişdik. Farslar bu əməliyyatdan xəbər tutdular, bütün bunları kimin təşkil etdiyini öyrəndilər. Və o zaman İranın marağı ondan ibarət idi ki, bizimlə əməkdaşlıq etsinlər, heç nə olmasın, müharibə Araksın (Araz – red.) o tərəfinə keçməsin. Onlar zəmanət istəyirdilər və bizimlə danışıq aparmağa gəlmişdilər. Bu, 1993-cü ilin əvvəlində, yazda idi. Dostlarımız və düşmənlərimiz kimlə qarşı-qarşıya gəldiklərini bilirdilər. Ona görə də bizimlə hesablaşdılar, danışıqlar apardılar. Təbii ki, biz farslara təminat verdik ki, əsgərlərimiz İran istiqamətində və həmin istiqamətdə geri çəkilən Azərbaycanlılara atəş açmayacaqlar. Belə də oldu", – Jamkoçyan açıqlamasında bildirib.

Erməni terrorçunun əslində hamıya məlum olan bu "sirr"i Tehranın ikibaşlı siyasətinin daha bir göstəricisidir.

Azərbaycanın ərazi bütövlüyünü şifahi şəkildə dəstəkləyən, Azərbaycan və İran xalqları arasında tarixi, dini və mədəni bağlardan danışan İran, buna baxmayaraq, Qarabağda erməni terrorçular ilə əməkdaşlıq edib.

Məlumdur ki, 1992-ci ildə biz Şuşanı da İranın vasitəçilik adı altında apardığı danışıqlar zamanı itirdik.

Buna görə də heç təəccüblü deyil ki, İkinci Qarabağ müharibəsi zamanı Azərbaycan Silahlı Qüvvələrinin qabaqcıl dəstələri Araz çayı boyu Xudafərin elektrik stansiyasının ərazisindən keçərək ən qısa və təhlükəsiz yolla Zəngilana daxil olmaq istəyərkən onların qarşısını İran ordusunun bölmələri kəsib.

İran tərəfinin müharibə zamanı Azərbaycan ordusunun bölmələrinin hərəkətləri ilə bağlı ermənilərə kəşfiyyat məlumatları ötürməsi də mollaların

Ermənistanın işğalçılıq siyasətinə və onun Qarabağda həyata keçirdiyi məhvetmə nə qədər isti yanaşdıqlarından xəbər verir.

**Mənbə: "KeyMolla" Teleqram kanalı**

**Azərbaycan dünyada və regionda yaranmış əlverişli siyasi və hərbi imkanlardan səmərəli istifadə edərək, Ermənistanı daha çox müdafiə edən dünya super gücləri̇lə balansı qoruya bilir. Bunu Qoşulmama Hərakatının üzv dövlətləri nazirlərinin Bakıda keçən və uğurla yekunlaşan toplantısı da təsdiq etdi. Azərbaycanın sədrlik müddəti daha bir il uzadıldı. Bu siyasətin uğurla həyata keçməsini ölkə Prezidentinin xarici siyasətinin nəticəsi hesab edirəm. Söz yox ki, bu məsələdə qardaş Türkiyə ilə müttəfiqliyin rolu az deyil.**



Tapdıq ABBAS
Təsisçi,
"Əməkdar mədəniyyət işçisi",
Pedaqoji fəlsəfə doktoru,
Qarabağ müharibə veteranı
t.abbas1952@list.ru

# Azərbaycanın xarici siyasəti müsbət nəticə verir

## Cənubi Qafqazda isə müharibə təhlükəsi qalır

Dünyanın hazırkı durumu çox dəyişkən və etibarsızdır. Rusiyanın Ukraynaya ilyarım ərzində davam edən hərbi təcavüzünün uğursuz perspektivi hər kəsə, hətta Putinin özünə də, aydın olsa da, Rusiyanın Ukrayna ilə müharibədən geri çəkilməsi də yaxşı bir şey vəd etmir.

Ukraynaya təcavüzün Rusiya ilə ABŞ və Avropa dövlətləri arasında hərbi qarşıdurmanı gücləndirdiyi, münasibəti pozduğu kimi, hərbi qarşıdurmanın Rusiyanın müttəfiqlərinə, o cümlədən Azərbaycana da mənfi təsir edəcəyinə şübhə etmirəm.

Amma bir şeyi yaddan çıxarmayaq ki, Azərbaycan döyüşən hər iki tərəflə münasibətini normal saxlayır və hər iki dövlət arasında sülh sazişi bağlamasına yardım etməyə çalışır.

Artıq ABŞ və Avropa dövlətlərinin rəhbərləri də anlayırlar ki, Cənubi Qafqazı öz təsir dairəsində saxlayan, ordusunu Ermənistan və Azərbaycan ərizisinə yerləşdirən Rusiyanın maraqlarını nəzərə almadan Azərbaycanı pis təsirlərdən, hətta təcavüzdən qorumaq mümkün deyil.

Azərbaycan həm ABŞ və Avropa dövlətlərilə, həm də Rusya, Çin və digər güclü dövlətlərlə ikitərəfli dostluq münasibətlərinin inkişafına üstünlük verməklə, Ermənistanın Azərbaycanın sülh sazişi bağlamaq təklifindan imtina etməsinin bəhanə olduğunu sübut edir.

Brüsseldə, Vaşinqtonda, Soçidə və Moskvada keçirilmiş üçtərəfli görüşlərdə Azərbaycanın öz ədalətli mövqeyini cəsarətlə, bir addım da geri çəkilmədən müdafiə etməsi, ölkəmizin beynəlxalq hüquqa əsaslanan şərtlər daxildə ərazi bütövlüyünü qorumasını danışıqlarda iştirak edən bütün tərəflər istəməsələr də belə, təsdiq etməyə məcbur olunublar.

Lakin regionda müharibə təhlükəsi artır. Ermənistanın baş naziri N. Paşinyan məcburiyyət qarşısında qalıb danışıqlarda Qarabağı Azərbaycanın tərkib hissəsi hesab etdiyini dilə gətirən kimi Azərbaycan əraziləri Ermənistan silahlı qüvvələri tərəfdən ardıcıl atəşə tutulur, zabit və əsgərlərimiz yaralanır və həlak olur.

Siyasətdən xəbəri olan hər kəs bilir ki, Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin bağlanmasına çalışan ABŞ və Avropa İttifaqının cəhdləri Rusiyanı qane etmir. Yəni Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi bağlanarsa, Rusiya regiondan çəkilməlidir. Rusiyanın istədiyi odur ki, Ermənistanla Azərbaycan arasında hərbi münaqişə daim alovlansın və Rusiya hərbçiləri hər iki ölkədə əbədi qalsın.

ABŞ və Aİ üzv ölkələri Ukraynaya ardıcıl hərbi yardım göstərir və Rusiyanı uzunmüddətli müharibəyə cəlb edərək, hərbi və iqtisadi tənəzzülə sürükləyir. Rusiya iqtisadi cəhətdən hər gün zəifləyir, hərbi sursat və canlı qüvvə tükənir, rubl sürətlə qiymətdən düşür, məmurlar dərin təşviş içindədir, var-yoxunu itirmək təhlükəsilə üzləşənlər vətəndaşlıqdan imtina edir və artıq Rusiyada dərin çöküş başlayıb.

Rusiyanın hərbi təcavüzü nəticəsində Ukraynada davam edən üzücü müharibənin gedişini izləyən dünya ictimaiyyəti, o cümlədən 200 ildir Rusiyanın zülmü ilə üzləşən və bu zülm nəticəsində çox şey itirən xalqımız qardaş Ukrayna xalqının qələbəsini səbirsizliklə gözləyir. Rusiya Ukraynaya hərbi təcavüz etməklə, onun müstəqilliyinə qəsd etməsi Rusiyanın çoxdan qazandığı işğalçı obrazını daha qabarıq şəkildə ortaya çıxardı, onun mənəvi məğlubiyyətini təmin etdi və fiziki məğlubiyyətinə aparan yolu açdı.

ÇVK "Vaqner" hərbi qruplaşmasının komandiri Priqojinin qısamüddətli hərbi qiyamı Rusiyanın nəyə qadir olduğunu ortaya qoydu. Xarici və daxili qüvvələr tərəfindən təşkil edildiyi iddia edilən bu hərbi qiyam Putinə qarşı keçirilən böyük yoxlama oldu. Məlum oldu ki, SSRİ-ni bərpa etmək həvəsinə düşən Putinin dayaqları çox zəif və çürükdür.

Rusiyanın Azərbaycan üçün etdiyi düşmənçiliyin sayı-hesabı saymaqla bitmir, ən yekəsi isə torpaqlarımızda Ermənistan adlı oyuncaq dövləti yaratması və onun ərazisini 9 min kv. km-dən 29 min kv.km-ə çatdırması, üstəlik, öz ordusunu "sülhməramlı" adı ilə Yuxarı Qarabağa yeridib, torpaqlarımızı işğal etməsidir.

Arzu edək ki, Ukrayna ordusu Rusiya ordusunu tezlikilə məğlub edib, öz ərazi bütövlüyünü təmin etsin və Rusiyanın postsovet məkanında ağalıq iddiasına son qoysun...



## AAK «bazarkom» professorla bağlı açıqlama yayıb

**Azərbaycan Prezidenti Yanında Ali Attestasiya Komissiyası məsuliyyətə cəlb edilən mütəxəssis-ekspert Şəfa Əliyev barədə açıqlama yayıb.**

Komissiyadan bildirilib ki, qurumun nəzdində 25 elm sahəsi üzrə 15 ekspert şurası fəaliyyət göstərir.

Qeyd olunub ki, ekspert şuralarının fəaliyyəti müstəqildir və onların tərkibinə Komissiyanın əməkdaşları olmayan müxtəlif müəssisələrdən cəlb olunmuş ekspertlər daxil edilir: "Hazırda ekspert şuralarının fəaliyyətinə elmi müəssisə və təşkilatlardan, ali təhsil müəssisələrindən müvafiq elm sahələri üzrə 300-dən çox yüksəkixtisaslı mütəxəssis-ekspert cəlb edilib. Ekspert şuralarının fəaliyyətinin səmərəliliyini artırmaq, o cümlədən çatışmazlıqların, neqativ halların qarşısını almaq məqsədilə onların tərkibi mütəmadi olaraq yenilənir.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin məlumatında adı çəkilən iqtisad elmləri doktoru, professor Şəfa Əliyev Komissiyanın əməkdaşı deyil, Sumqayıt Dövlət Universitetinin professoru vəzifəsində çalışır və Komissiyanın Rəyasət Heyətinin 29 sentyabr 2020-ci il tarixli qərarı ilə İqtisad elmləri üzrə ekspert şurasının üzvü və elmi katibi təyin edilib.

Komissiya onun nüfuzuna xələl gətirə biləcək bu kimi neqativ halların müəyyən edilməsində maraqlıdır və konkret bu işin obyektiv araşdırılmasında müvafiq qurumlara lazımi dəstək göstərəcək".

# Dünyaya gəlişi istənməyənlər...

## Və onları sevmək cəsarəti olanlar

***Diskriminasiya müsbət hal deyil, çoxları bilir. Bilməyənlər də elə ayrı-seçkilik yaradanlardır. Yaxud da bilə-bilə ayrı-seçkilik salanlar var. Onlar barədə saatlarla danışmaq, mübaliğə kimi səslənməsin, günlərlə bəhs etmək olar. Çünki günümüzdə ayrı-seçkiliyin belə desək, müxtəlif sahələr üzrə qurbanları var.***

Öncə cəmiyyətin azlıqlar və çoxluqları təmsil edən təbəqələrini yada salaq. Cəmiyyətimizdə orta təbəqənin mövcud olmamasından dolayı, kasıb, yoxsul və varlı təbəqənin arasında daimi ayrı-seçkilik yaşanır. Bunu inkar edənlər olacaq, təbii. Guya ki sosial-iqtisadi həyat tərzindən asılı olmayaraq, bütün sinif və təbəqələr (bu sözə da dodaq büzənlər tapılacaq) arasında bərabər, insani münasibət hökm sürür. Bunun absurd olduğunu görmək üçün sadəcə olaraq, gündəlik həyata diqqət etmək lazımdır. Aqillər bilər bunun nə olduğunu. Cahillərlə işimiz yox.

Ayrı-seçkiliyin yaşandığı cəmiyyətlərdə istiqamətindən asılı olmayaraq, daim mənfi hadisələr baş verir. İstər orta və ali təhsil müəssisələrindəki şagird və tələbələr arasında, istər idarə-təşkilatlardakı işçilər arasında, istərsə də adicə ailələr içində ayrı-seçkiliyi müşahidə etməmək mümkün deyil. İnsanların çoxu buna diqqət etmir, kökünün hardan başladığının fərqinə varmadan, bəzən onu ənənə də hesab edir. Lakin mövcud olan və hələ də davam edən, yaşanan hansısa bir münasibəti ənənə hesab etmək, ona yanaşmanı dəyişmədən olduğu kimi davam etdirmək də doğru hal deyil.

Yanlış olan hallardan birindən və problemin ən dərinindən - ailə içində qız uşaqlarına olan yanaşmadan danışaq. Danışaq ki, yalan olmasın, əsrlərin daşlaşmış, qranitləşmiş problemini heç olmasa, müasir dünyamızda çözə bilək. Bu problemi indi də çözməsək, cahiliyyət dövründən heç nə ilə fərqimiz olmaz. O dövrdən ki qız uşaqlarını övlad, insan hesab etmədən müxtəlif yollarla öldürürdülər. O yolları göz qabağına gətirməyin özü belə dəhşətdir. Fəqət bu vəhşiliyi özünə rəva bilənlər əsrlər əvvəl mövcud olub. Bəli, onların yalnız mövcudiyyətindən danışmaq olar, insan kimi yaşamaq və var olmağı belə məxluqlar haqda demək olmaz.



Amma təəssüf ki, müasir dünyamızda qız uşaqlarına olan həminki baxış, münasibət hələ də davam edir. Doğrudur, birmənalı, açıq şəkildə qız uşaqlarının kütləvi soyqırımını fakt kimi ortaya qoymaq mümkün deyil. Yəni onların dirigözlü öldürüldüyünün kütləvilik göstəricisini demək mümkün deyil. Lakin onlara qarşı olan ayrı-seçkilik halları da elə müasir dövrümüzün ən çox rast gəlinən ağrılı faktlarıdır.

Bunların içində qız uşaqlarının ibtidai pillədə təhsildən yayındırılması, sonrakı mərhələdə təhsil almasına imkan, daha sonuncu məqamda isə təhsil alsa belə, işləməsinə icazə verilməməsi faktları var. Ailədə bəzən qız uşaqlarına patriarxal baxışların olması faktları da mövcuddur. Qız uşaqları elə bil ki, günahkar, onları dünyaya gətirən analar isə sanki gözükölgəlidirlər. Halbuki azacıq da olsa elmi, bilgisi olan şəxs bilir ki, övladın cinsinin qız doğulmasının səbəbkarı heç də qadın deyil, birbaşa kişidir. Hansı xromosom daşıyıcısı olduğunu bilməyən və dünyaya gətirdiyini də gözümçıxdıya salaraq, yalnız qadını günahkar hesab edən neçə-neçə insan tanıyırıq. Onların cahillyindən bu gün ailələrdə az qala qızların soyqırımı yaşanır, qız uşaqları dünyaya gəlməzdən öncə məhv etdirilir, öldürülür. Bu ayrı-seçkiliyin nəticəsidir ki, günümüzdə statistik göstəricilər, hesablamalar da qız uşaqlarının sayının getdikcə azaldığını göstərir. Hələ həyata göz açmadan öncə aşağılayıcı münasibətə məruz qalaraq məhv edilənlər övlad adını qazanmadan dünyaya gələ bilmirlər. Çünki onlar cahillərin qorxusu - qız uşaqlarıdır. Cins fərqi olmadan hər bir insanın dünyaya gəlişində əsas rol oynayan qadının sayəsində həyat verilən cahillər... Ona həyat verən cinsə qarşı bu cür qəddar münasibətin adını kim bilirsə, söyləsin.

Qız uşaqlarına ögey münasibət bəsləyən, övladının qız olmamasını arzulayan varlıq görəsən, anasına, bacısına, həyat yoldaşına qeyd-şərtsiz, hansı münasibətdə, baxışda, sədaqətdə, doğmalıqda ola bilər? Yeri gəlmişkən, bu münasibətdə birmənalı olaraq təkcə bir cinsi günahlandırmaq doğru deyil. Qız uşaqlarını sevməyənlərin, onları övlad olaraq arzulamayanların, istəməyənlərin sırasında təəssüf ki, onların elə öz cinsindən olanlar da çoxdur. Bunun anlamı isə izahlara, gətirilən arqumentlərə baxmayaraq, yoxdur.

Bu yoxluqda kiminsə deyil, nəyinsə varlığının nə anlamı ola bilər?!

Qız uşaqlarının həyatına dünyaya gəlməzdən və gələndən sonra da qənim kəsilənlərin varlığı mənim üçün həmişə sual altında olub. Sanıram, insan olaraq dünyaya gələnlər və yaşayanlar da bu fikirdədir.

Dünyaya gələn hər bir insanın isə özünəməxsus missiyası var. O sırada cinslər arasında ayrı-seçkilik salaraq diskriminasiyaya rəvac verənlər hələ anlamırlar hansı mövqedə dayandıqlarını. Vaxt olar, zaman yetişər, həyatına qənim kəsilənlərə möhtac olarlar bəlkə. Bəlkə də onlara çətin vaxtda, ehtiyac yarananda əl uzadan elə həyatında yer vermədikləri olar. Nə bilmək olar...

Eşidib-bildiyimiz, oxuyub-araşdırdığımız isə odur ki, müqəddəslərimizin belə çiynində gəzdirdiyi məhz qız uşaqları olub... Görəsən, bizlər insanlığın əşrəfiylə müqayisədə nə həddə, hansı dərəcədəyik?!

...Çoxunun "niyə oğul övladı" sualının öləndə çiynində gedəcəyinin reallıqda tam əksi cavablandırılan dünyada yaşayırıq. Bugünlərdə bir nəfərdən eşitdiyim, günümüzə, dünyabaxışımıza fərqlilik qatan münasibət isə budur: "Görünür, qız övladının ataanası olmaq cəsarəti, mərdliyi kimlərəsə hələ çatmır"...

... Gec də olsa, tez də olsa, insanda bəzən yazıya qayıtmaq düşüncəsi olur. Amma kaş ki, sözügedən problemin çözümü, ayrı-seçkilik yanaşması müsbət mənada həllini tapaydı. O zaman yazıya qayıtmamaq, o barədə düşünməmək, ümumiyyətlə, bu mövzunu biryolluq unutmaq arzusu yaranır insanda. Problemin həlli, daha doğrusu, problem yaratmamaq hər birimizin öz əlindədir, zatən.



Nigar Orucova

# Heyif, pulumuz yoxdur ki...

## Fəslin gözəlliyindən bəhrələnək




***"Dünya köhnə dünyadır, sevgiləri təzədir" - rəhmətlik Nüsrət Kəsəmənli və Flora Kərimovanın birgə yaratdıqları bu möhtəşəm əsər hələ də öz populyarlığını qoruyub saxlayır. Bu köhnə dünyamızın hər an dəyişən yazılmış və yazılmamış qanunları altında çətin də olsa, durumdan hərdən razı, hərdən də narazı görüşə gedəni var, görüşdən gələni var, kövrəlib ağlayanı, ürəkdən güləni var…***

Çünki istəsək də, istəməsək də həyatın bir sıra qanunları var ki, tabe olmağa məcbursan. Elə yazını da bu notlarla başlamaqda məqsədim dünyanın qeyliqalsız ötüşmədiyini bir daha xatırlatmaqdı. Burda nə musiqidən, nə də ədəbiyyatdan danışmaq fikrim yoxdu. Hər zamankı kimi, təəssüf dolu mənzərə, özümüzü kəsən maneələr və sairə.

Yay fəslində iyul ayı ilin ən gözəl çağıdı. Qızmar günəşli günləri uzun, ulduzlu gecələri isə qısadı. Havaların günəşli olmağını təkcə insanlar deyil, bitkilər, heyvanlar da sevir. Təbiətin al-əlvan rəngə boyanması, yamyaşıl ağaclarda quşların cəh-cəh vurması, müxtəlif cür cır meşə meyvə və giləmeyvələrin təbii şəkildə dərmansız-dəvasız yetişməsi, onlardan imkan düşdükcə dadmaq, çayda balıq tutmaq, şəhərin maşın səs-küyünün yorğunluğunu çıxarmaq, heç bir otel ödənişi etmədən meşəsində çadır qurub gecələmək - bütün bunları yaşamaq, həm maddi, həm də mənəvi rahatlıq tapmaq necə də gözəldir.

İyul ayında havaların çox isti keçdiyini bilirsiniz. Xüsusilə də paytaxtımızda nə yaxşı ki, həmişə külək var. Yoxsa ki, qızmar şuasına, rütubətinə görə daha da dözülməz olardı.

Fəsillərin hamısı gözəldi, amma qeyd etdiyim kimi, kasıbların fəsli olan yayın bir başqa yeri var. Bu fəsli gözləməyimizin səbəbi təkcə yuxarıda qeyd etdiklərimlə bağlı deyil, həm də ona görədir ki, soyuq aylarda yaşadığımız bir sıra, qaz pulu, işıq pulu, nadir hallarda yağan qardan sonrakı palçıqlı yollar və sairə bu kimi digər problemlərdən müvəqqəti də olsa qurtuluruq. Amma təəssüflər olsun ki, günəşli günlərin sevincini doyadoya yaşamağımıza mane olan bir sıra səbəblər var ki, özünü tez yetirir deyə qayıdıb soyuqdan büzüşdüyümüz günlərə şükür edirik.

Bakıda yay deyəndə ilk ağıla gələn yer ya meşə, ya da dəniz sahili və çimərlik olur. Qonşum Gülnisə xala deyir ki; "təxminən 30-40 il əvvəl dəniz deyəndə ruhumuz dincəlirdi, elə evin içindəcə sərinliyini hiss edərdik. Amma indi tərsinədi, dəniz adı gələndə canımıza həyacan gəlir. Adı bizim, dadı pullu, imkanlıların olan sərvətimizə tamarzı qalmışıq. Pis xasiyyətli gəlinin ucbatından atası evinə həsrət qalmış qızlar kimi kənardan baxırıq dənizə. Bir az istirahət etmək üçün dəniz sahilinə gedirsən qarşını daş hasarlar kəsir. Yaxud, meşəyə yollanırsan tikanlı məftillərə ilişib qalırsan. Bir sözlə, milli sərvətlərimiz qapısı kilidlənmiş qızıl anbarına dönüb. Xəzinadar isə insafsızdı, nə gözümüzü, nə də könlümüzü doyurmağımıza imkan vermir. Axı dünyaya 1 dəfə gəlirik, doğulduğumuz coğrafiyanın torpağınının altı da, üstü də xəzinədir. Niyə bundan yararlanmağımıza mane olurlar?"

Gülnisə xalanın haqlı iradları qarşısında aciz qalır adam. Dəniz hasar içində, meşə tikanlı məftillər arasında... Hara gedəsən, dərdini kimə söyləyəsən...?

Çimərliklərin qiyməti cibimizə uyğun deyil. Hansısa bir xidmətdən istifadə etmək istəsən ən aşağısı 20-30 manatından keçməlisən. Bir ailənin dənizdə bir gün dincəlməsi üçün 100-150 manatın olmalıdı. Hələ minumum qiymətlərdən danışıram, 300-500 manatadək olan yerləri isə kasıb təbəqə videolarda və yuxularda görür. Ən acınacaqlısı isə budur ki, bu pulları kimə və nəyə görə ödədiyimizi bilmirik. Nə bizə bir qəbz verən yoxdur ki, filan xidmətlərə görədir bu ödəniş, nə də bu barədə girişdə, yaxud çıxışda insanların maariflənməsi üçün ən azı tablo üzərində bir məlumat yoxdu.

Xalqa məxsus olanlardan pulsuz, ya da az ödənişlə yararlana bilmirik. Hasarlanmış yerlər bir yana, heç mülkiyyətimiz sayılan ərazilərdə də imkan verən yoxdur ki, doyunca nəfəs alasan.

Ayrı yolumuz qalmır, bu özbaşınalıqlarla razılaşmaqdan başqa çarəmiz qalmır. Çünki illərlə davam edən və hər yay aktuallaşan bu problem həll olunmaq əvəzinə vəziyyət getdikcə daha da qəlizləşir. Baxmayaraq ki, düz 15 il bundan əvvəl dənizin 20-50 metr məsafədə hasara alınmasının qadağan edilməsi ilə bağlı sərəncam verilib, daha sonra məsələ Milli Məclisdə müzakirə edilib. Bütün bunlardan sonra hasarlar nəinki sökülüb, əksnə daha da uzanıb, genişlənib.

Pirşağı çimərliyi kimi tanınan "Qızıl qum" adlanan ərazini şəhər əhalisi mütləq ki, tanıyır. Oranın hasara alınması lap gülməlidi, bu proses anbaan artır. Orda çimərliyə daxil olmaq və ordakı cürümək üzrə olan taxta oturacaqlardan istifadə etmək 25 manatdır. Təsəvvür edirsiz? Bura gələn insanların başqa seçimi qalmır, tələb olunan məbləği ödəyir. Ona görə ki, digər ərazilər zəbt olnub, qala kimi hasara alınıb.

İnzibati Xətalar Məcəlləsində də dənizin hasara alınması qadağan edilib, lakin nədənsə bu qadağalar elə kağız üzərindəcə qalır.

Gedişat da onu göstərir ki, kasıb, imkansız insanların dənizdə istirahəti mümkün deyil.

Artıq xalq da bezib, daha əvvəlki vaxtlarda olduğu kimi durub deyən də yoxdur bu dəniz bizim milli sərvətimizdi. Bu sərvəti heç kim özəlləşdirə bilməz, o hər birimizindir. Niyə biz imkanlı, varlı adamların dəniz ətrafını mənimsəmələrinə görə ləpədöyənə çıxmaq üçün xeyli pul xərcləməliyik? Sərvətimizdən istifadə haqqı əlimizdən niyə alınıb? Dövlət qurumları insanların haqqının bu cür tapdanmasına niyə göz yumur? Xalq məmurların və imkanlı adamların qanunsuz əməlləri nəticəsində öz haqq və hüquqlarından niyə istifadə edə bilmir, özbaşınalıqlardan niyə əziyyət çəkirik? Azərbaycanda Xəzər dənizini özününküləşdirən və xalqı dənizə həsrət qoyan məmurların qarşısını kim, nə vaxt alacaq?

Maraqlıdır ki, ölkə prezidenti məmurların özbaşınalığı və harınlığı barədə yeri gəldikcə xəbərdarlıq etsə də, bu xəbərdarlığın təsiri hiss olunmur. Ona görə ki, həddini aşan məmurların hər birinin arxasında dağ kimi dayanan özündən daha yüksək çinli məmur durur. Açıq hiss olunur ki, məhz buna görədir dövlət başçısının etdiyi xəbərdarlıqların heç bir təsirinin olmaması. Özbaşınalıq əvvəlki qaydada, hətta hələ bir az da ondan çox aşikar davam edir. Əgər belə olmasaydı dənizə çəkilən hasarlar, meşələrə dolanmış tikanlı məftillər sökülərdi.

Əslində, məmurların bu dərəcədə hədlərini aşmasının əsas səbəbi ölkədə yaranmış cəzasızlıq mühitidi. Törətdiyi qanunsuz əməlinə görə, qanun qarşısında cavab verən bir məmur tanıyırsız? Mən tanımıram. Uzaqbaşı vəzifələrindən azad olunublar və dövlətdən, xalqdan taladıqlarını rahat xırıd etmək üçün daha geniş imkanlar qazanıblar.

Biz təkcə Xəzərin suyunda sərinlənməkdən məhrum deyilik, digər bütün sərvətlərindən də məhrumuq. Sahilində yaşadığımız dəniz məhsullarını, xüsusən balığı, kürünü yalnız brokonyerlərin əlində görə bilirik. Müstəqillik əldə etdiyimiz vaxtdan bəri Xəzərin nə balığını, nə də kürüsünü bu millət bir dəfə də olsun, süfrəsində görməyib. Artıq kürünün görünüşü, forması da yaddaşımızdan silinib, çünki şəxsən mən bu neməti Azərbaycanda sonuncu dəfə 17 yaşımda yemişəm. Amma restoran sahibləri Xəzərin növ-növ, xüsusən də ağ balığının kababını satmaqla milyonlar qazanırlar! Sual yaranır: əgər dəniz xalqın, millətindirsə, bəs onun sərvətlərini - balığını, kürüsünü niyə yalnız məmurlar yeyir, satır, talayır? Bəs, xalq həmin sərvətlərin sahibi kimi, onlardan nə zaman istifadə edəcək?!

Yəqin hakimiyyət nə vaxt məsuliyyət hiss edib, xalqı düşünsə, o zaman. O da, bu gedişlə çox çətin məsələdir. Bu yerdə yadıma ataların "balıq başdan iylənər" kəlamı düşdü. Xəzər dənizi haqqında ürəkağrısı ilə yazılan bu sətirlərin sonunda bir həqiqəti yazmağı özümə borc bilirəm: Xalq dövlətinə sahib çıxıb, kömək məqsədilə məmurlar üzərində nəzarət funksiyasını əlinə almayınca, ölkədə məmur özbaşınalığının, talançılığının qarşısını almaq mümkün olmayacaq!..

**Məndən bu qədər. Günəşli günlərdə hasardan azad olmuş dəniz istirahəti arzusu ilə!**



*Şahnaz Salehqızı*



## Azərbaycan Ukraynaya kartof satırmış

**Ölkəmiz Ukraynaya kartof tədarük edən əsas ölkələr sırasındadır**

Bu ilin yanvar-iyun aylarında Ukraynaya 8,641 milyon dollar dəyərində 12,476 min ton kartof idxal edilib.

Bu barədə Ukrayna mətbuatı ölkənin Dövlət Gömrük Xidmətinin hesabatına istinadən xəbər verir..

Bildirilir ki, cari ilin birinci yarısında ən çox kartof tədarükü Yunanıstandan həyata keçirilib. Belə ki, bu ölkənin qeyd olunan məhsul kateqoriyası üzrə idxalda payı 27,29 faiz təşkil edib ki, bu da dəyər ifadəsində 2,23 milyon dollara bərabərdir.



Hesabat dövründə Rumıniyadan 1,034 milyon dollar (12,66 faiz), Azərbaycandan isə 970 min dollar (9,67 faiz) dəyərində kartof tədarük edilib.

Qanunvericiliyin Avropa tələblərinə uyğunlaşdırılması səbəbindən Ukrayna kartofunun Avropa bazarına çıxarılması qadağandır. Bununla yanaşı, Ukrayna ənənəvi satış bazarlarını itirməyib və 19,854 min ton kartof ixracından 11,251 milyon dollar gəlir əldə edə bilib ki, bunun da 50,7 faizi Bolqarıstana, 39,7 faizi Azərbaycana, 9,05 faizi Moldovaya ixrac edilib.

# "Allaha rüşvət"i kim verib?

## "Yağışdan çıxdıq, yağmura düşdük"



Təəssüflər olsun ki, bu gün - 21-ci əsrdə Azərbaycan fermeri Seyid Əzim Şirvaninin 150 il əvvəl "Allaha rüşvət" şeirində təsvir etdiyi Azərbaycan kəndlisinin durumuna düşüb. Müasir fermerlər Allaha rüşvər təklif edəcək qədər cahil olmasa da, kifayət qədər oxşar məqamlar var. Belə ki, son illər ərzində Azərbaycan fermeri su probleminin həlli üçün üz tutacağı Allahdan başqa doğru-dürüst bir ünvan tapa bilmir. Aran camaatı yalnız suyu Allahdan istəyir. Çünki müraciət etdikləri ünvanların heç biri illərdir yığılıb qalan su problemini həll edə bilmir. İldən-ilə isə problem daha da kəskinləşir. Axır ki, bu il erkən yayda Allah "qara camaat"ın da dualarını və diləklərimi eşitdi - kəndlilərə "su göndərdi". Amma deyəsən susuzluqdan dodaqları çatlayan "qara camaat" ifrata vararaq, həddən artıq su istəyib. Nəticədə Yaradanın aciz bəndəsinə göndərdiyi bol su selə çevrilərək onun varidatını dalğalara, ləpələrə qərq edib. Tam olaraq Seyid Əzim Şirvaninin "Allaha rüşvər" əsərinin kluminasiyasında təsvir edilən mənzərə bu il Azərbaycanda yaşandı. Əsrlərlə sel görməyən İmişli və Biləsuvar rayonunda belə sel əhaliyə ciddi ziyan vurdu.

Əslində isə Azərbaycan ərazisində illik su dövriyyəsinin həcmi son 50 ildə ciddi kənarlaşmaya məruz qalmayıb. Hər il təxminən çaylarımızdan eyni həcmdə su dövr edir. Baxmayaraq ki, yağıntının əksər hissəsi yay aylarına düşdü, bu il də ölkəmizin ərazisində su dövriyyəsi illik normadan ciddi kənarlaşma nümayiş etdirməyəcək. Sadəcə olaraq, bu il yayın əvvəlində intensiv yağışlar su dövriyyəsinin həcmini bir neçə dəfə artırdı və nəticədə bölgələrimizdə dağıdıcı sel müşahidə edildi. Buna bənzər hadisələr qarşıdakı günlərdə də gözlənilәndir. Lakin 21-ci əsrdə Azərbaycan xalqı və hökuməti bu selin qarşısında aciz durumda qaldı. Çünki onların bu təbiət hadisəsinə qarşı heç bir qabaqlayıcı tədbiri nəzərdə tutulmayıb. Məsələyə cavabdeh olan məmurlarımız dünyanın digər regionlarında baş verən oxşar bədbəxt təbiət hadisələrini misal gətirərək, əhaliyə təskinlik verməkdən başqa heç nə edə bilmədi. Əslində isə ölkəmizin ərazisinin əsas hissəsi düzənlik olduğundan çox nadir hallarda sel sularına şahidlik edib. Relyef səbəbindən bu il Aran rayonlarında baş verən daşqınların həcmi heç də kritik deyildi. Yəni normal suvarma infrastrukturu olsaydı bu sel dağlıq və dağətəyi rayonlarda indikindən bir neçə dəfə az ziyan verərdi, Aran bölgələrində isə heç hiss edilməzdi.

Belə ki, Azərbaycandakı bol sulu çaylar üzərində ehtiyat su anbarlarının tikilməsinin, mövcud olan anbarların isə lildən təmizlənərək işlək vəziyyətə gətirilməsinin vaxtı artıq çoxdan çatıb. Əvvəla ona görə ki, dünyada gedən iqlim dəyişiklikləri, əsasən də ilin orta temperatur göstəricisinin yüksəlməsi yüksəkliklərdə suyun qar-buz şəklində ehtiyatlarının toplanmasına imkan vermir. Bu səbəbdən də ölkə ərazisində su dövriyyəsinin həcmi erkən yazda, bəzən isə builki kimi, yayın əvvəlində sürətlənir. Nəticədə bəzən illik su dövriyyəsinin böyük əksəriyyəti bir neçə gün və ya bir həftə ərzində çaylardan keçərək mənsəbə doğru hərəkət edir. Bu həm sel yaradaraq xalq təsərrüfatına ciddi ziyan vurur, həm də sonrakı dövrdə su qıtlığı yaradır ki, bu da kənd təsərrüfatı bitkilərinin məhsuldarlığını aşağı salır. Biz ölkə ərazisində kifayət sayda və həcmdə su anbarları tikməklə həm sel sularının təzyiqini aşağı sala, həm də sonrakı dövrlərdə bu anbarlarda yığılan su ehtiyatları hesabına su qıtlığını aradan qaldıra bilərik. Belə ki, hava şəraitinə uyğun olaraq, hansısa çayda sel təhlükəsi və ya su bolluğu hiss edilən kimi həmin çay üzərində yerləşən anbarların qapıları açılır. Anbarlara axın həm çayda suyun səviyyəsini nizamlayır - suyun səviyyəsini aşağı salır, həm də gələcək dövr üçün anbarlara su ehtiyatı toplanır. Azərbaycan kimi kiçik ölkə ərazisində su ehtiyatlarını bu üsulla idarə etmək çox asandır. Sadəcə olaraq lazım olan su ehtiyatlarının həcmi və ona uyğun olaraq anbar həcmləri hesablanaraq müəyyənləsdirilməlidir. Bunun ardınca isə müəyyənləşdirilmiş həcmdə anbar tikintisi aparılmalıdır.

Eyni zamanda, su anbarlarının yerləşdirilməsi də tərtib edilən hesabata uyğun aparılmalıdır. Su anbarlarının yerləşdirilməsi əsasən sel təhlükəsinin uyğun həyata keçirilməlidir. Hansı ərazidə ənənəvi olaraq daha çox su formalaşırsa anbarların yerləşmə intensivliyi həmin ərazilərdə daha sıx olmalıdır ki, anbarlar sel təhlükəsinin önlənməsində səmərəli və operativ şəkildə istifadə edə bilsin.

Respublikada irili-xırdalı 140 su anbarı mövcuddur. Onlardan 6 əsas böyük su anbarları bunlardır: Mingəçevir, Şəmkir, Araz, Yenikənd, Varvara, Ceyranbatan və Sərsəng su anbarları. Azərbaycanda hər birinin həcmi 1 mln. kubametrdən çox 61 su anbarı mövcuddur. Su anbarlarının ümümi tam həcmi 21,5 km$^3$ təşkil edir. Su anbarları həm çayın məcrasında (məcra su anbarları) həm də ondan kənarda (məcradan kənar su anbarları) yaradılıb. Lakin belə burasındadır ki, birincisi, bu anbarların həcmi su resurslarının səmərəli idarə edilməsinə imkan vermir. Yəni ölkənin suvarılan torpaqlarını ilboyu müntəzəm suvarma suyu ilə təchiz etmək üçün gərəkən su ehtiyatlarının toplanması bu həcmində anbarlara mümkün deyil. Təxmini hesablamalara görə, bunun üçün ən azı daha 10 km$^3$ anbar həcminə ehtiyac duyulur.

Məsələnin ikinci tərəfi ondan ibarətdir ki, mövcud anbarların böyük əksəriyyəti tam gücü ilə işləmir. Anbarların 60-70 faizi tam gücünün heç yarısı qədər də su tutumuna malik deyil. İllərdir təmizlənməyən su anbarları lillə dolub. Məsələn, Hacıqabulda Pirsaat çayı üzərində tikilmiş su anbarının dərinliyi 18 metr olsa da, onun 11 metri lillə dolub. Sovetlər dönəmində həmin anbar hesabına normal su ilə təmin edilən Hacıqabul rayonunda su qıtlığı səbəbindən 50 min hektardan çox torpaq sahəsi əkilmir. 50 min hektar sahədə 30 sentiner məhsuldarlıqla buğda becərilsə, bu 150 min ton taxıl deməkdir. Bu isə ölkənin illik buğdaya tələbatının 7,5 faizini təşkil edir. Yəni hər il Bakının 100 kilometrliyində bir su anbarının lillənməsi səbəbi ilə biz 150 min ton buğda itiririk. Bu hesabla bölgələrimizdə itirilən məhsul potensialı on dəfələrlə çoxdur.

Nəticə olaraq qeyd edək ki, ölkədə su anbarları həcmini bərpa etmək və artırmaqla biz həm su qıtlığından, həm də sel təhlükəsindən tamamilə xilas ola bilərik.



Akif Nəsirli

# Unudulmaz, şirin-acı xatirələr



**Hər bir insanın yaddaşına həkk olunmuş xatirələr onun qəlbində yurd salır və əbədiləşir. İndiki zamanda baş verən hadisələr nə qədər maraqlı olsa da, keçmişin şirin xatirələri daha maraqlı olur.**

Qeyd edim ki, bu yazdığım xatirə ötən əsrin 1961 - 1965 - cı illərinə təsadüf edir. Yaşadığım həmin dövrü uşaqlıq və gənclik illəri də adlandırmaq olar.

Qəlbimdə dərin iz buraxmış kövrək xatirələr doğma Əlinəzərli kəndində keçən uşaqlıq illərini əhatə edir. Əgər xatirələrimdə hər hansı qüsura, yanlışlığa rast gəlsəniz, üzürlü saymağınızı rica edirəm.

Ən kövrək xatirələrdən danışarkən ilk dəfə məktəbə getdiyim günü daha çox xatırlayıram. Həmin dövrdə Orta Əlinəzərli kəndində ibtidai məktəb olmadığına görə, kəndimizdən 3 km aralı olan Birinci Aşıqlı kənd səkkizillik məktəbinin birinci sinifinə getdik.

Birinci sinifdə ilk müəllimimiz rəhmətlik Valya müəllimə oldu. Məktəbin direktoru tarix müəllimi Salam Məmmədov çox zəhmli adam idi. Onun adı çəkiləndə şagirdlər qorxudan diksinər, heç kim dərsə gecikməzdi. Dərs bitəndən sonra yuxarı sinifdə oxuyan bacım Ruqiyəni və onunla birlikdə oxuyan Zemfiranı gözləyirdim.

Nəhayət evə gəlib dincəldikdən sonra həmyaşıdlarımızla kəndimizin yaşca bizdən böyük olan cavanlarına qoşular, tərəkəmələr arasında dəbdə olan oyunları oynayardıq. Daha doğrusu, bizdən böyüklərin oyunlarına tamaşa edər və onlardan öyrənməyə çalışırdıq.

Gənclik illərində kəndimizin səfalı yerlərindən sayılan Fətalıoğlu küdrüsünə (təpə) gedər, oradan görünən kolxoz bağına baxar və bağban Dəmirov İsmayıl kişinin qorxusundan oğurluq etməyə cəsarət etməzdik.

Hər iki Əlinəzərli kəndi o zaman çox kiçik idi, hər kənddə təxminən 50 ev olardı. Evlərin çoxu qamışdan tikilmiş çovusdandan (ev) ibarət idi. Kənd əhalisinin əksəriyyəti qoyun, mal saxlayar, yayda Kəlbəcər yaylağına, qışı kəndimizin yaxınlığındakı fermalarda keçirərdilər.

Bir daha bildirim ki, hazırda təsvir etdiyim hadisələr köçəri həyat sürən əhalinin kolxozlaşmasının inkişaf etdiyi dövrə qədəm qoyduğu illərdə hər iki Əlinəzərli kəndinin əhalisinin məskunlaşmağa başladığı dövrə aiddir. Yaşlıların dediyinə görə, Əlinəzərli camaatının yaylağa getməyən az bir qismi 1950-ci ildən yayı Aranda kənddə qalmağa başlayıb. Sonrakı illərdə pambıqçılığın inkişafı ilə bağlı Aranda qalıb, kənddə yurd salanların sayı artıb.

Ötən əsrin 60-cı illərində Orta Əlnəzərli kəndində ibtidai məktəb olmadığına görə, uşaqlar birinci və ikinci sinifdə təhsil almaq üçün hər gün 2-3 kilometr məsafə qət edərək, Birinci Acıqlı kənd səkkizillik məktəbinə getməli olurdu. Orta Əlinəzərli kəndində ilk ibtidai məktəbin 1962-ci ildə açılması kənd əhalisi üçün böyük hadisə oldu. 3 otaqdan ibarət olan məktəbdə, ilk müəllimimiz Rafiq Nemət oğlu Mədətov oldu. O, avtomobil qəzasında həlak olandan sonra, birillik müəllimlik kursu bitirmiş rəhmətlik Məmmədov Zakir Uğus oğlu bizim kəndin müəllimi oldu.

Bir ildən sonra isə, Zakir Məmmədov getdi, rəhmətlik Ağamirzə Əliş oğlu Quliyev Orta Əlinəzərli ibtidai məktəbdə onu əvəz etdi. Siniflərdə şagirdlərin sayı az olduğuna görə, 1-ci və 2-ci sinif şagirdləri qrup halında bir sinifdə və 3 - 4 - cü sinif şagirdləri isə bir sinifdə dərs keçirdi. Məktəbimiz 3 otaqlı olduğuna görə, bir balaca otaq müəllimlər otağı idi, digər iki, nisbətən böyük otaqlar isə sinif otağı kimi istifadə olunurdu.

Orta Əlinəzərli ibtidai məktəbinin açılması kəndimizin körpə uşaqlarının sevincinə səbəb oldu. Çünki 3 km uzaqda olan Birinci Acıqlı səkkizillik məktəbinə dərsə getmək azyaşlı uşaqlar üçün böyük problem idi. Sinif yoldaşlarımızın xeylisi qışın soyuğunda, yazın və payızın istisində xəstə düşmüşdülər. Quliyev Maşallah Əyyub oğlu, Quliyev Surxay Xanalı oğlu arx suyu içməkdən ağır xəstələndikləri üçün dərsi buraxıb, müalicəyə cəlb olundular.

**"Kəndimizin gəncləri"**

Kəndimizdə müxtəlif yaş qrupuna aid olan, nisbətən yuxarı siniflərdə oxuyan gənclər adətən, dərsdən sonra bir yerə yığışıb, müxtəlif oyunlar oynayırdı, biz kiçiklər isə onlara tamaşa edər, onları yamsılamağa çalışırdıq. Uşaqların yuxarı yaş qrupunu Tapdıq Qaçay oğlu Talıbov, Nüsrət Məmmədalı oğlu Məmmədov, Rafael (Rafiq) Cəlal oğlu Cəfərov, Rəsul Ələkbər oğlu Mirzəyev, Mehdi Nəriman oğlu Həsənov, Mətləb Həsrət oğlu Quliyev və digərləri təşkil edirdi. Bunların hamısı 1947-1950-ci il doğumlu, bizdən böyük uşaqlar idi. Yalnız Arif Nəriman oğlu Həsənov və bu yazının müəllifi həmyaşıd idik, hər ikimiz 1952-ci ilin may ayında doğulmuşuq.

Orta Əlinəzərli kəndində hər gün bir yerə toplaşan uşaqların böyüklərinin 13-15 yaşı var idi, amma bu uşaqlar kasıb kənd uşaqları olsalar da, çox çevik və cəsarətli idilər.

**"De görüm, anan kimdir, kimin oğlusan"?**

Yaxşı xatırlayıram, həmişəki kimi, bir gün oyundan sonra, böyük uşaqlara qoşulub, rəhmətlik Dəmirov İsmayıl kişinin bağban olduğu kolxoz bağına meyvə oğurluğuna getdik.

Kolxozu birləşdirən 3 kənddən ikisinin arasında, Fətalıoğlu küdrüsünün (təpəsi) üstündə, Baş və Orta Əlinəzərli kəndlərinin arasındakı kolxoz bağına girib, üzüm, şaftalı və digər meyvələrdən yığıb, kimi evdən gətirdiyi fartuka, kimi də köynəyinin aşağısını bağlayıb, köynəyini doldurub bağdan çıxanda rəhmətlik bağban İsmayıl kişi bizi yaxaladı.

Qeyd edim ki, bağban İsmayıl kişi camaat arasında böyük hörmətə malik idi, vaxtı ilə kolxoz sədri işləmişdi, zəhmli və həm də baməzə kişi idi. İsmayıl kişi bizi bağda tutdu və boy sırasına düzdü, sonra sorğuya başladı. Maraqlı və diqqətimi çəkən o idi ki, İsmayıl kişi hər bir uşağın atasının yox, anasının adını soruşurdu: sənin anan kimdi, kimin oğlusan? - deyə, uşaqlara sual verirdi...

Sonralar öyrəndim ki, kəndin kişilərinin əksəriyyəti müharibəyə getdiyi və çoxu geri qayıtmadığına görə, İsmayıl kişi əvvəlcə uşaqların anasının adını soruşurmuş...

Bir gün İsmayıl kişi bütün uşaqların yığdığı meyvəni alıb yerə boşaltdı və hər bir uşağın qulağını çəkərək, boyununa çox yüngül şapalaq vurdu və dedi: - Bir də hansınızı meyvə oğurluğunda tutsam, ananızı cərimələtdirəcəm, eşitdinizmi? - deyib, bizi evə buraxdı...

Aradan bir neçə il keçdi və bir gün uşaqlarla toplaşıb Baş kəndə toya getdik. Palatkadan ibarət olan toy mağarı ağzına kimi dolu idi. Lap başda, musiqiçilərin sırasında kolxoz sədri rəhmətlik Məhəmməd Bayramov, rəhmətlik Molla Əli əmi, rəhmətlik kolxozun bağbanı Dəmirov İsmayıl kişi, kolxozun baş aqranomu Əyyub Abdullayev və kolxozun digər vəzifəliləri əyləşmişdilər, qarşılarında da armudu stəkanda pürrəngi çay buğlanırdı...

Yuxarıbaşda oturanları tanımadığıma görə, onların kimliyini yoldaşlarımdan soruşub öyrəndim.

**"Nə bağ bildi, nə də bağban"**

Kəndimizdə toy olanda çox sevinər və toy məclisində baş verən hər hadisəni uzun müddət xatırlayardıq.

Rəhmətlik Ataş kişi oğlu Xankişiyə Baş kənddə toy edirdi. Kəndimizin bir neçə uşaqları ilə birlikdə yığışıb toya getdik. Biz kiçik yaşlı olduğumuza görə, o zaman bizi toy mağarına buraxmırdılar. Biz isə palatkanın açıq yerlərindən toyu maraqla izləyirdik. Kənddə toy axşamı çox sıxlıq olurdu, oturmaq və oynamaq üçün hər kəs onun sifarişini gecikdirən "toy bəyi" ilə, hətta dalaşırdı, bəzən dava düşürdü və toy dağılırdı.

Xülasə, gecənin şirin və toyun ləzzətli məqamında məşhur "Nə bağ bildi, nə dəbağban" musiqisinin sədası altında özünəməxsus ritmlə oynayan İsmayıl kişi hamını ona əl çalmağa sövq edirdi. İsmayıl kişi həmişə olduğu kimi, toy mağarında qol götürüb bir dövrə vurandan sonra həyat yoldaşı Gülsənəm xanımı oynamağa dəvət edərdi və toy iştirakçılarının çəpik səsləri hər tərəfə yayılardı...

Əziz oxucular, keçmiş xatirələr hər zaman əzizdir. İnsan yaşadığı illərə geri dönüb baxanda irili-xırdalı çox şeylər yada düşür və insanı boşuna yaşamadığı üçün çox məmnun edir.

**Bir sözlə, müasir dünya nə qədər inkişaf etsə də, ötən illərinin kövrək xatirələrini heç nə əvəz edə bilmir, əksinə insan keçmiş həyatı xatırladıqca, həmin xatirələrin kövrək qoynunda dincəlmək istəyir...**

***T. Abbas***

# Prezident Nazirlər Kabinetini topladı, həm də Söyüdlü olayından danışdı

**İyulun 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirə keçirilib.**

**Dövlət başçısı müşavirədə çıxış edib:**

- İlin əvvəlində verdiyim tapşırıqların yerinə yetirilməsi ilə bağlı bir çox addımlar atılmışdır. İlin altı ayı arxada qalır. Müəyyən dərəcədə yekunlar haqqında danışmaq olar. Halbuki əminəm ki, ilin sonuna qədər ölkəmizin uğurlu inkişafı təmin ediləcəkdir. Bu ilin altı ayında isə əsas istiqamətimiz ölkəmizin dayanıqlı inkişafının təmin edilməsi, qeyri-neft sektorunun inkişafı, Qarabağın və Şərqi Zəngəzurun bərpası, iqtisadi və sosial sahələrdə islahatların davam etdirilməsi idi.

Deyə bilərəm ki, bütövlükdə altı ay ərzində iqtisadiyyatımız inkişaf edib, halbuki mütləq rəqəmlər o qədər də böyük deyil. Ancaq qeyri-neft sektorumuz və qeyri-neft sektorunun sənaye sahəsi kifayət qədər artıbdır. Qeyri-neft sənayemiz 6,5 faiz artıbdır və qeyri-neft sektoru, ümumiyyətlə, 3 faizdən çox artıbdır.

Bununla bərabər, bizim maliyyə vəziyyətimiz böyük dərəcədə yaxşılaşıb, bunun bir çox səbəbləri var. İlk növbədə, maliyyə sektorundakı nizam-intizamın möhkəmləndirilməsi, vergi və gömrük orqanlarında islahatların davam etdirilməsi, şəffaflığın təmin edilməsi - bütün bu amillər imkan verdi ki, ilin ortasında biz büdcəyə yenidən baxaq və dürüstləşmə aparaq. Bu, çox sevindirici haldır, çünki proqnozlardan xeyli dərəcədə böyük vəsait toplanmışdır. Onsuz da bizim builki dövlət büdcəmiz rekord həddə çatmışdır, 33 milyard manatdan çox səviyyəyə qalxmışdır. Ancaq ilin birinci yarısında əlavə gəlirlərin əldə edilməsi imkan verdi ki, biz təcili həllini gözləyən məsələləri daha tez zamanda həll etmək üçün büdcəyə əlavələr edək və bunu etdik. Bu gün bizim büdcəmiz 36 milyard manatdan çoxdur. Əlbəttə, bu, bizə imkan verir ki, həm ölkə qarşısında duran əsas investisiya layihələrini icra edək, ilk növbədə, bir daha demək istəyirəm ki, azad edilmiş torpaqlarda geniş quruculuq işlərinə növbəti təkan verək və bizim hərbi gücümüzü artıraq.

Dürüstləşmə zamanı bizim əsas iki istiqamətimiz də çox açıq-aydın qoyulmuşdur. Bütövlükdə 3 milyard manatdan çox vəsait əlavə edildi. Bunun 1,8 milyard manat hissəsi Qarabağın və Şərqi Zəngəzurun bərpa edilməsinə istiqamətləndirilmişdir, 1,1 milyard manat isə hərbi potensialımızın güclənməsinə. Yəni, ayrılmış məbləğin mütləq əksəriyyəti bu iki istiqamətə yönəldilmişdir və bu da təbiidir. Çünki bu gün ölkə qarşısında duran iki əsas vəzifə məhz bu vəzifələrdir.

Biz xarici dövlət borcunun idarə edilməsi istiqamətində də öz işimizi mənim bir neçə il bundan əvvəl verdiyim tapşırıqlar əsasında qurmuşduq. Mən bir neçə il bundan əvvəl demişdim ki, biz qarşıya hədəf qoymalıyıq və qoymuşduq ki, xarici dövlət borcumuz ümumi daxili məhsulumuzun 10 faizinin altında olsun, o səviyyədə olsun. Biz artıq bu hədəfə də çatdıq. Mütləq rəqəmlərdə bizim borcumuz cəmi 6,7 milyard dollardır və bu da ümumi daxili məhsulumuzun təxminən 10 faizini təşkil edir. Əlbəttə ki, ümumi daxili məhsulumuzun son rəqəmləri ilin sonunda hesablanacaq. Ancaq indi də proqnoz vermək mümkündür. Birinci altı ayda ümumi daxili məhsul 60 milyard manatdan çox təşkil etmişdir.

Müsbət məqamlardan biri və bu da xüsusilə qeyd olunmalıdır. Çünki bir çox ölkələrdə, hətta ölkələrin əksəriyyətində biz tamamilə başqa mənzərə görürük. Amma bizdə xarici ticarət balansımızın müsbət - yəni, profisiti çox böyük səviyyədədir. Ölkələrin böyük əksəriyyəti daha çox idxal edir, nəinki ixrac edir. Bizdə isə bu, tam əksinədir və ilin birinci altı ayında bizim profisitimiz təqribən 10 milyard dollara yaxındır. Əgər bu templər qorunsa, təsəvvür edin, biz ilin sonuna qədər hansı rəqəmlərə çatacağıq. Təbii ki, bunun birbaşa təsiri makroiqtisadi sabitliyin təmin edilməsinədir. Makroiqtisadi sabitlik uzun illər ərzində təmin edilir. Manatın məzənnəsi altı ildir ki, sabitdir və bu da dünya praktikasında, xüsusilə indiki şəraitdə nadir hadisələrdən biridir. Yəni, bu, düşünülmüş siyasətin təzahürüdür və bu siyasətin mərkəzində təbii ki, Azərbaycan vətəndaşı dayanır. Çünki makroiqtisadi sabitlik təbii ki, ölkə iqtisadiyyatına təsir edir. Amma, ilk növbədə, bunun ən ciddi təsiri insanların yaşayış səviyyəsinədir. Bizdə isə həm minimum əməkhaqları, həm minimum pensiyalar müntəzəm olaraq artırılır. Bununla paralel olaraq manat sabitdir.

Əlbəttə ki, inflyasiyanın ikirəqəmli olması bizi düşündürməlidir. Ümid edirəm ki, ilin sonuna qədər inflyasiya birrəqəmli səviyyəyə düşə bilər. Burada təbii səbəblərlə yanaşı, subyektiv səbəblər də vardır. Onlar daha ciddi araşdırılmalıdır və ilin sonuna qədər atılacaq addımlarla bağlı təkliflər verilməlidir. Çünki Azərbaycanın bütövlükdə iqtisadi potensialı və iqtisadi sahədə əldə edilmiş nəticələr fonunda inflyasiyanın 12 faiz səviyyəsində olması, əlbəttə ki, arzuolunan deyil.

Qeyd etdiyim kimi, bizim büdcə dürüstləşməsindən sonra iki əsas istiqamətimiz Qarabağın, Şərqi Zəngəzurun bərpası və hərbi qüdrətimizin artırılması idi. Birinci istiqamətlə əlaqədar deyə bilərəm ki, hər şey nəzərdə tutduğumuz planlardan daha sürətlə icra edilir. Bütün güclərimizi səfərbər etmişik. Artıq bu il Talış kəndinə və Laçın şəhərinə keçmiş məcburi köçkünlərin qayıtmasını təmin etmişik. İlin sonuna qədər Laçın şəhərinin Zabux və Sus kəndlərinə də keçmiş məcburi köçkünlər qayıdacaqlar. Qayıdış proqramı ardıcıllıqla aparılır və beləliklə, ilin sonuna qədər bizim artıq beş yaşayış məntəqəmizdə - bir şəhər və dörd kəndimizdə vətəndaşlar öz dədə-baba torpaqlarında tam məskunlaşacaqlar. Bütövlükdə Böyük Qayıdış proqramının birinci mərhələsində 100 yaşayış məntəqəsinin yenidən qurulması nəzərdə tutulur. Mən şəxsən 30 yaşayış məntəqəsinin - 8 şəhər, 22 qəsəbə və kəndin təməlinin qoyulmasında iştirak etmişəm. Baş planlar hazırlanıb təsdiqlənib, bir çox yerlərdə fəal inşaat işləri aparılır. Təbii ki, ilk növbədə, infrastruktur layihələri icra olunur. Çünki bu layihələr icra edilmədən biz vətəndaşları qaytara bilmərik. Eyni zamanda, yaşayış evlərinin inşası sürətlə gedir. Mən Laçın şəhərinin timsalında bunu deyə bilərəm ki, cəmi səkkiz ay ərzində şəhərin böyük hissəsi tamamilə bərpa edilib və yeddi yüzdən çox ailə üçün burada həm fərdi evlər, həm çoxmənzilli evlər hazırlanır. Laçın şəhərinin gələcək inkişaf planı ilə bağlı əlavə addımlar da atılacaq.

Əlbəttə ki, biz, bu sahədə görüləcək işləri daim diqqət mərkəzində saxlamalıyıq. Deyə bilərəm ki, mənim gündəlik fəaliyyətimdə bu məsələ bu gün birinci yerdə dayanan məsələdir və biz daim bütün işlərə nəzarət edirik. Hökumət üzvləri və digər rəsmi şəxslər müntəzəm olaraq azad edilmiş bölgələrə ezam olunurlar. Biz hər şeyi planlı şəkildə edirik, orada ən yüksək standartlar tətbiq edilir və edilməlidir. Bütövlükdə nəzərdə tutulmuş investisiya proqramı əsasında bu ilin sonuna qədər Qarabağ və Şərqi Zəngəzura biz təqribən 12 milyard manata qədər vəsaitin xərclənməsini təmin edəcəyik. Onu da bildirməliyəm ki, görülən bütün işlər Azərbaycan hesabına həyata keçirilir. İki məktəb istisna olmaqla, qalan bütün infrastruktur, inşaat işləri Azərbaycanın büdcəsi hesabına və Azərbaycanın dövlət şirkətləri tərəfindən həyata keçirilir. Eyni zamanda, Heydər Əliyev Fondu ondan çox məscidi yenidən inşa edir, yaxud da ki, onları əsaslı şəkildə bərpa edir.



Gələn ilin investisiya proqramı hazırlananda, - yaxın gələcəkdə biz artıq gələn ilin büdcəsini də müzakirə etməyə başlayacağıq, - əlbəttə ki, Qarabağın və Şərqi Zəngəzurun investisiya xərclərinə baxacağıq və elə etməliyik ki, maliyyə qıtlığı ucbatından vaxt itirməyək. Yenə də deyirəm bizim maliyyə imkanlarımız genişlənir. Amma o demək deyil ki, bizim bu sahədə problemlərimiz yoxdur. Ölkə qarşısında duran bir çox vəzifələr var. İnfrastruktur layihələri təkcə Qarabağda, Şərqi Zəngəzurda yox, bütün ölkə üzrə həyata keçirilir. Sənaye inkişafı ilə bağlı və digər məsələlərlə bağlı bizim çox böyük maliyyə resurslarımız cəlb edilir, səfərbər olunur. Əlbəttə ki, biz ayrılan hər bir vəsaitə böyük qənaətlə yanaşmalıyıq və şəffaflıq tam təmin edilməlidir - həm büdcə gəlirlərinin toplanmasında, həm də xərclənməsində. Qeyd etdiyim kimi, büdcəyə əlavə edildikdə ikinci əsas istiqamət hərbi gücümüzün artırılmasına istiqamətləndirilmişdir. Bu da təbiidir. Beynəlxalq vəziyyət bəllidir. Mənim uzun illər dediyim sözlər bu gün əyani şəkildə özünü büruzə verir. Dünyanın müxtəlif yerlərində beynəlxalq hüquq işləmir. Beynəlxalq hüquqa, beynəlxalq təşkilatların qərarlarına, qətnamələrinə bel bağlamaq olmaz. Biz həmişə hüququn tərəfdarı idik, o cümlədən beynəlxalq hüququn. Biz həmişə ədalətin tərəfdarı idik. Bu gün də ədalətin və beynəlxalq hüququn tərəfdarıyıq və beynəlxalq müstəvidə bu mövqeyi müdafiə edirik. Həm bir ölkə kimi, həm də 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatının sədri kimi və nazirlər səviyyəsində son toplantı bir daha onu göstərdi.

Ancaq biz görürük ki, dünyada qaydalar tamamilə pozulub, davranış qaydalarına, beynəlxalq hüquqa əməl edilmir. Biz demək olar ki, bunu hər gün görürük, hər gün. Böyük dövlətlər, hansılar ki, beynəlxalq hüququn təminatçısı rolunu öz üzərinə götürüblər, birinci onlar bu hüququ pozurlar və sonra da onu əsaslandırırlar. Ölkələr deyəndə mən bütün böyük ölkələri nəzərdə tuturam. Necə deyərlər, hərəsi öz xətti ilə ya konvensiyaları pozur, ya beynəlxalq hüquq normalarını pozur, ya da oturuşmuş beynəlxalq davranış qaydalarını pozur və bunu heç gizlətmir də. Ona görə, əlbəttə ki, biz, ilk növbədə, özümüzü qorumaq üçün, öz müstəqilliyimizi qorumaq üçün, seçimimizi qorumaq üçün, həyat tərzimizi qorumaq üçün, ərazi bütövlüyümüzü qorumaq üçün daha güclü olmalıyıq. İkinci Qarabağ müharibəsi başa çatandan sonra biz dayanmadan bu istiqamətdə çox ciddi addımlar atmışdıq və mən bunu artıq bildirmişəm, bir də demək istəyirəm, bu gün Azərbaycan Silahlı Qüvvələri daha böyük hərbi potensiala malikdir. Həm döyüş qabiliyyəti, həm silah və texnika ilə təchizat baxımından daha da güclü olacağıq, çünki bu proses dayanmır və dayanmamalıdır. Mən demişəm, iki istiqamət üzrə - hərbi potensial və azad edilmiş torpaqların bərpasına nə qədər vəsait lazımdır biz o qədər də ayıracağıq.

Biz bu siyasəti aparmaqla ölkəmizin qüdrətini artırırıq. Çünki bu gün dünyada güc amili ön plandadır və güclə hesablaşırlar, gücdən çəkinirlər. Biz son iki il yarım ərzində bir neçə dəfə bunu bir neçə ünvana göstərmişik və heç kim bizim iradəmizə təsir edə bilməz. Əksinə, bizə qarşı tuşlanmış bütün oxları sındırıb öz ləyaqətimizi qoruya bilmişik və maraqlarımızı qoruya bilmişik, daha əlavə sözlərə ehtiyac yoxdur, hər şey göz qabağındadır. Necə deyərlər, dərinə getmək istəmirəm, amma bunu artıq hər kəs görür, görməlidir və bilməlidir ki, Azərbaycanla hədə-qorxu, ultimatum dili ilə heç kim danışa bilməz və hesab edirəm ki, bundan sonra belə cəhdlər də olmayacaq.

Bundan sonrakı illərdə Silahlı Qüvvələrimizin modernləşdirilməsi, bu sahədə islahatların dərinləşdirilməsi, yeni silahlı birləşmələrin yaradılması və təkmilləşdirilməsi istiqamətində, o cümlədən ən müasir silahların, texnikaların alınması istiqamətində işlər plan üzrə gedir. İkinci Qarabağ müharibəsindən sonra Silahlı Qüvvələrimizdə aparılan islahatlar hələ başa çatmayıb, o cümlədən struktur islahatları. Biz öz Silahlı Qüvvələrimizi ən qabaqcıl orduların səviyyəsinə çatdırmalıyıq, yəni, təbii ki, Azərbaycan miqyasını nəzərə almaq şərtilə. Struktur islahatları, idarəetmə və özünü müdafiəetmə qabiliyyəti nöqteyi-nəzərindən biz elə güc yaradırıq ki, yerləşdiyimiz coğrafiyada özümüzü tam əmin hiss edə bilək. Bu gün də belədir, amma daha böyük işlər də görülməlidir. Yenə də deyirəm, bu sahə elə sahədir ki, burada az danışmaq, çox iş görmək lazımdır. Ona görə bundan artıq demək istəmirəm. Hər halda Azərbaycan xalqı əmin ola bilər ki, bizim təhlükəsizliyimiz etibarlı əllərdədir. Azərbaycan xalqı bundan sonra da rahat yaşaya bilər və yaşamalıdır. Bizim qarşıda duran vəzifələrimizdən biri təbii ki, Ermənistanla olan münasibətlərimizdir. Burada, bu sahədə, yəni, nəticə təkcə bizdən asılı deyil. Halbuki bizim siyasətimiz Ermənistan tərəfini də vacib addımların atılmasına sövq edir. Ancaq, əlbəttə ki, bu, qarşılıqlı fəaliyyətdir.

Bizim sülh danışıqları ilə bağlı mövqeyimiz aydındır, məntiqlidir, beynəlxalq hüquqa əsaslanır. Hesab edirəm ki, bu prinsiplə, beynəlxalq hüququn norma və prinsipləri əsasında sülh müqaviləsi imzalana bilər. Hər halda mən hesab edirəm ki, belə imkanlar var. Son danışıqlar raundları və bir neçə gündən sonra nəzərdə tutulan yüksək səviyyəli təmaslar bir məqsədi güdür ki, biz sülh anlaşmasına daha da yaxınlaşaq. Biz bunu arzulayırıq, bunu təşəbbüskar kimi irəli sürmüşük. Ancaq yenə də deyirəm, hər şey bizdən asılı deyil, qarşı tərəf də buna hazır olmalıdır və sözdə ifadə etdiyi prinsipləri kağız üzərinə də keçirməlidir.

Son müsbət məqamlardan biri odur ki, Ermənistan tərəfinin mövqeyində müsbətə doğru hərəkət var. Əgər keçən ilin oktyabrında Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və sərhədlərini qəbul etmişdirsə, bu ilin may ayında daha irəli gedərək artıq Azərbaycan ərazisinin parametrlərini də, o cümlədən Qarabağ və anklav kəndlərimiz daxil olmaq şərtilə rəsmən tanıyıb. Bu, müsbət hal kimi qiymətləndirilməlidir. İndi sıra gəlib çatıb ki, eyni sözlər kağız üzərində də öz təsdiqini tapsın, imzalar atılsın və münasibətlər yaradılsın. Hər halda biz bu istiqamətdə öz səylərimizi davam etdirəcəyik.

Bizim digər sahələrdəki vəzifələrlə bağlı deyə bilərəm ki, xüsusilə son vaxtlar nəqliyyat sektorunun əhəmiyyəti daha da artır. Çünki bəzi məhdudlaşdırıcı tədbirlər yeni nəqliyyat marşrutlarının açılmasına gətirib çıxarır və Azərbaycanın əlverişli coğrafi vəziyyəti, əlbəttə ki, bizim üçün əlavə imkanlar yaradır. Bildiyiniz kimi, biz nəqliyyat sektorunun inkişafı ilə bağlı uzun illər ardıcıl siyasət aparırıq və öz ərazimizdə infrastrukturu demək olar ki, əvvəlki dövrün tələbatına uyğun olaraq tam modernləşdirmişik. Amma bu gün tələbat daha da artır. Çünki yüklər artır, nəqliyyat marşrutları, qeyd etdiyim kimi məhdudlaşır. Həm Şimaldan Cənuba və əks istiqamətdə, həm də Şərqdən Qərbə və əks istiqamətdə yükdaşımaların artması göz önündədir. Burada da Azərbaycan çox etibarlı tərəfdaş kimi çıxış edir və öz qonşuları ilə sıx təmasdadır, qonşuların nəqliyyat problemlərinin həlli üçün öz köməyini də əsirgəmir. Eyni zamanda, bu sahə bizim üçün prioritet sahələrdən biridir. Mən bir neçə dəfə demişəm, bir daha demək istəyirəm, bizim istəyimiz təkcə böyük yükləri aşıran tranzit ölkə olmaq deyil. Bizim istəyimiz odur ki, bu nəqliyyat marşrutları üzərində istehsal sahələri yaradılsın, biznes imkanları yaradılsın, sərmayə qoyulsun. Biz öz işlərimizi bu istiqamətdə aparmalıyıq, o cümlədən qonşu ölkələrlə təmaslar əsnasında. Hüquqi baza var, sənaye zonaları artıq uzun illərdir ki, fəaliyyət göstərir. Ələt Azad İqtisadi Zonasının rəsmi açılışı oldu və dövlət tərəfindən qoyulan sərmayə artıq nəticə verməyə başlamışdır. Özəl investorlar da artıq cəlb edilib və biz bunun nəticələrini görürük.

*(Davamı səh.9-da)*

13 iyul 2023-cü il
www.paralel.az
e.mail adresi: paralel_qazeta@mail.ru



# Prezident Nazirlər Kabinetini topladı, həm də Söyüdlü olayından danışdı

(Əvvəli səh.8-da)

Yəni, bir sözlə, biz gərək nəqliyyat dəhlizlərinin biznesə olan təsiri haqqında özümüz üçün konseptual qaydada bir araşdırma aparaq və özümüz üçün bir hədəf müəyyənləşdirək ki, biz nə istəyirik. Ölkə ərazisində Cənubdan Şimala və Şərqdən Qərbə gedən yollar demək olar ki, rayonlarımızın əksəriyyətini əhatə edir. Deməli, hər bir istiqamət üzrə spesifikaya görə, iqlimə görə, ixtisaslaşmaya görə xüsusi bir biznes imkanları olmalıdır. Hökumət üzvləri bu məsələ ilə bağlı öz təkliflərini hazırlasınlar. Bizim ümumi biznesin inkişafı konsepsiyamız var, müxtəlif alətlər var, o cümlədən güzəştli kreditlər və digər alətlər. Yəni, bunu indi nəqliyyat marşrutları prizmasından da təhlil etsək, məncə yaxşı olar.

Onu da bildirməliyəm ki, bu yaxınlarda biz öz nəqliyyat imkanlarımızı hüdudlarımızın kənarına da çıxara bildik, ilk növbədə, Qara dənizdə. Üç böyük tanker alınmışdır, hərəsi 115 min tonluq. Bu, ilk dəfədir Azərbaycan tarixində, mənim göstərişimlə həll olunub. Tankerlərə də "Şuşa", "Qarabağ" və "Zəngəzur" adları verilib.

Azərbaycan mallarının Azərbaycan şirkəti tərəfindən daşınması bizə əlavə gəlir gətirəcək və biz artıq Qara dənizdə də varıq. Biz onsuz da var idik. Bizim kiçik həcmli gəmilərimiz var idi. Amma bu gün bizim "Aframax" tipli ən böyük tankerlərimizdən üçü artıq Qara dənizdə işləyir. Lazım olarsa, onların sayını biz artıra bilərik.

Bizim Xəzərdəki gəmiqayırma imkanlarımıza da yenidən baxmalıyıq. Çünki qonşu ölkələrdən sifarişlər gəlir. Bizim gəmiqayırma zavodumuz mövcud daşıma imkanlarımıza hesablanmışdır. Eyni zamanda, uzun illər fəaliyyət göstərən gəmilərin sıradan çıxmasını da nəzərə alırıq. Çünki onlar sıradan çıxır, təzələnməlidir. Amma indi daha böyük tələbat var - həm bizim, həm də ki, qonşu ölkələrin. Beləliklə, istisna deyil ki, biz nə vaxtsa gəmiqayırma zavodunun istehsalat sahələrinin genişləndirilməsinə də başlaya bilərik. Yəni, siz bunu diqqətdə saxlayın. Hər halda xaricdən gələn sifarişlər, - biz artıq ilkin danışıqlara başlamışıq, - çox müsbət haldır və bu, bir daha göstərir ki, biz hər şeyi vaxtında edirik.

Əgər bu gün bizdə gəmiqayırma zavodu olmasaydı, biz tankerləri, gəmiləri haradan alacaqdıq? İndi sual ritorikdir. Biz əvvəllər haradan alırdıq, indi oradan heç kim ala bilmir. Ona görə bu, vaxtında atılmış strateji bir addım idi. Ələt Beynəlxalq Dəniz Ticarət Limanının imkanlarının genişləndirilməsi də. Bu göstərişi də mən vermişdim, biz bunu da etməliyik. Çünki bizim aşırma qabiliyyətimiz 15 milyon tona hesablanıb. Əvvəlki dövr üçün bu, kifayət idi. Bir-iki ildən sonra bu, çatmaya bilər, çünki yenə də mən əvvəlcədən nəyi isə demək istəmirəm. Amma qonşu ölkələrlə və tərəfdaş ölkələrlə aparılan danışıqlar göstərir ki, Azərbaycan ərazisindən bir neçə dəfə çox yüklərin daşınması mümkün olacaqdır.

Bir məsələyə də mən toxunmaq istərdim. Bu da ekoloji tarazlıqla bağlı olan məsələdir. Qarabağ və Şərqi Zəngəzur ekoloji fəlakət zonasına çox yaxın idi. Çünki Ermənistan həm Ermənistandakı müəssisələrin fəaliyyəti nəticəsində, eyni zamanda, o vaxt işğal edilmiş torpaqlarda - Qarabağda və Şərqi Zəngəzurda təbii resurslarımızın vəhşicəsinə istismarı nəticəsində təbiətimizə böyük zərbə vurub. Təkcə onu demək kifayətdir ki, 60 min hektardan çox meşə fondu ermənilər tərəfindən dağıdılıb, talan edilib, çıxarılıb, satılıb, yaxud parket düzəldiblər və satıblar. Yəni, bütün bu peyk görüntüləri bizdə var. İndi transsərhəd təhlükələri mütləq nəzərə alınmalıdır və Azərbaycanın burada sərgilədiyi mövqeyi yenə də beynəlxalq təcrübəyə, beynəlxalq konvensiyalara əsaslanır, o cümlədən Espo Konvensiyasına, bunu hər kəs internetdə açıb baxa bilər. O göstərir ki, transsərhəd çayların çirkləndirilməsi və ölkələrin sərhədlərinə yaxın müəssisələrin, ekoloji təhlükə mənbəyi sayıla biləcək müəssisələrin yaradılması qonşu ölkələrlə mütləq razılaşdırılmalıdır və biz bunu Ermənistandan tələb edirik. Bu gün Azərbaycan ictimaiyyəti, qeyri-hökumət təşkilatları artıq bu məsələ ilə bağlı Ermənistanın rəsmi orqanlarına müraciət ünvanlayıblar və ekologiya sahəsində fəaliyyət göstərən beynəlxalq ekspertlər və qeyri-hökumət təşkilatlarının nümayəndələri də bu müraciətə qoşulublar. Ona görə mən hesab edirəm ki, Azərbaycan Hökuməti də burada kənarda qalmamalıdır. Bizim vətəndaş cəmiyyətimiz bu addımı atır, çox yaxşı, amma baxmaq lazımdır, rəsmi xətlə, yəni, dövlət xətti ilə hansı təşkilatlara hansı müraciətlər ünvanlanmalıdır ki, Ermənistan bu təhlükəli praktikadan əl çəksin. Əgər onlar hansısa müəssisə yaratmaq istəyirlərsə, bizim buna, əlbəttə ki, münasibətimiz ola bilməz. Onların daxili işidir. Amma əgər bu müəssisə bizim sərhədimizin 500 metrliyində yerləşirsə, orada təhlükəli maddələrdən istifadə ediləcəksə və bu maddələr yenə də Araz çayına, Oxçu çayına töküləcəksə, bu, bizim məsələmizdir. Biz buna necə imkan verə bilərik? Əlbəttə ki, biz bu məsələləri qanun çərçivəsində, beynəlxalq konvensiyalar çərçivəsində, diplomatiya çərçivəsində mütləq diqqətdə saxlamalıyıq. Ona görə bu tapşırığı verirəm, siz baxın, hansı hüquqi yollar var ki, Ermənistan bu təhlükəli praktikadan əl çəksin.



Bununla əlaqədar deyə bilərəm ki, bu yaxınlarda Naxçıvan Muxtar Respublikasının gələcək inkişafı ilə bağlı mənim göstərişimlə dövlət proqramı qəbul edilmişdir. Proqram mətbuatda dərc edilib, hər kəs götürüb oxuya bilər. Bu, Naxçıvanın uğurlu sosial-iqtisadi inkişafını qısa müddət ərzində təmin edə biləcək proqramdır və əminəm ki, tam icra ediləcək. Çünki bu proqram bizim öz resurslarımıza əsaslanıbdır. O cümlədən mən nə üçün bunu indi dilə gətirirəm, orada Naxçıvanın da Qarabağ və Şərqi Zəngəzur kimi "yaşıl enerji" zonasına çevrilməsi məsələsi mənim tərəfimdən qoyulmuşdur. Naxçıvan Muxtar Respublikasında elektrik enerjisinin böyük hissəsi indi su elektrik stansiyaları vasitəsilə istehsal olunur. Orada günəş və külək elektrik stansiyalarının inşası da nəzərdə tutulur - ola bilər 1000 meqavat, ola bilər 1500 meqavat. Biz həm muxtar respublikanın bütün tələbatını "yaşıl enerji" ilə təmin edəcəyik, həm də qonşu ölkələrə də "yaşıl enerji"ni ixrac edəcəyik. Bütün bunları qeyd edərkən görürük ki, ölkəmizin böyük hissəsi artıq rəsmən "yaşıl enerji" zonası elan edilib və bunun fonunda Gədəbəy rayonunda baş vermiş hadisə tamamilə qəbuledilməzdir. Mən hesab edirəm ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyi ən azı səhlənkarlığa yol verib, nəzarətsizlik nümayiş etdirib, passiv müşahidəçi kimi çıxış edib və bunun nəticəsində xarici investor bizim təbiətimizi zəhərləyib. İnsanlar haqlı olaraq öz etiraz səsini ucaldıblar, amma onların səsinə baxan olub? Yox! Bir gün, iki gün, üç gün, beş gün, hara baxırdı Ekologiya və Təbii Sərvətlər Nazirliyi? Bilmirdimi ki, belə problem var? Ya bilirdi gözünü yumurdu, ya da bilmirdi. Hər ikisi qəbul edilən deyil. Düzdür, vətəndaşların bir hissəsi təxribatçıların fitnəsinə uyaraq ədəbsiz hərəkətlər ediblər, qanunsuz hərəkətlər ediblər və bu da dözülməzdir, qəbuledilməzdir. O təxribatçıların bəziləri Azərbaycanda, bəziləri xaricdə gizlənir. Azərbaycandakılar artıq müəyyən edildi və bir neçəsi məsuliyyətə cəlb olunmuşdur. Xaricdəkiləri də biz məsuliyyətə cəlb edəcəyik. Heç kim, necə deyərlər, fikirləşməsin ki, biz bunu unutmuşuq. Azərbaycanda xaos, özbaşınalıq, təxribat xarakterli addımlar 1993-cü ildə başa çatıb. Əgər kimsə unudubsa, biz xatırlada bilərik. Ona görə vətəndaşlar da həm mədəniyyət göstərməlidirlər, necə deyərlər, mərifət göstərməlidirlər, qanuna tabe olmalıdırlar, polisə daş atmamalıdırlar, polisə daş atmaq heç kimə şərəf gətirən hərəkət deyil. Bu, birincisi. İkincisi, bu, cinayətdir. Əgər Azərbaycan polisi dözümlülük göstərirsə, o demək deyil ki, kim istəyir polisə daş ata bilər. Bu, qətiyyən mümkün deyil. Mən hər kəsə deyirəm, burada biz kiminsə nazı ilə oynayası deyilik, necə lazımdır, əgər lazım bilsək, kimi lazımdır, elə cəzalandırarıq ki, peşman olar.

Ancaq, eyni zamanda, bu hadisənin təbii səbəbi var idi. O da ondan ibarətdir ki, xarici şirkət buraya pul qazanmağa gəlib. Biz etiraz etmirik, investisiya qoyubdur, iş yerləri yaradıbdır. Əlbəttə, onlar gəlib burada xeyriyyəçiliklə məşğul olmurlar ki, pul qazanmağa gəliblər. Amma bu o demək deyil ki, bizim təbiətimiz məhv olsun. O demək deyil ki, insanların örüş, otlaq sahələri zəbt edilsin. O demək deyil ki, heç kimdən icazə almadan ikinci tullantı gölü qursun. Kim onlara icazə verib? Görünür, ya Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə sövdələşiblər, ya da ki, onu özbaşına ediblər, ona görə ciddi araşdırılmalıdır. Prokurorluğa, digər aidiyyəti qurumlara bütün göstərişlər verilmişdir. Mən xəbər tutandan sonra zəng edib Baş nazirə dedim ki, mütləq komissiya yarat və göndər hadisə yerinə getsin. Yaxşı, bunu mən deməli idim? Ekologiya naziri özü bilmirdi ki, oraya getməlidir. Mən demişəm, gedin orada camaatla danışın, o torpağın, havanın nümunələrini götürün, beynəlxalq ekspertləri cəlb edin ki, - çünki nazirlik bir halda bu hadisənin səbəbkarı olub, ola bilər ki, işi malalasın, - onlar rəy versinlər, bu yataqların istismarı nə dərəcədə insanların sağlamlığına, təbiətə zərərlidir, ya zərərli deyil? Bu günə qədər cavab yoxdur. Bəli, Nazirlər Kabinetində müşavirə keçirilib, orada açıqlama verilib. O açıqlamanı oxuyan heç nə başa düşə bilməz ki, orada nə deyilib və o açıqlamanın məqsədi nə idi? İşi malalamaq, yaxud da ki, hansısa belə ümumi sözlərlə bu məsələyə diqqət yetirmək. Mən konkret tapşırıq vermişdim, konkret. Hanı ekspertizanın nəticələri? Nə qədər vaxt keçib? Bir aya yaxın vaxt keçib. Heç kim mənə məruzə etmir - Nazirlər Kabineti etmir, Ekologiya və Təbii Sərvətlər Nazirliyi etmir. Hesab edirlər ki, mən bunu unutmuşam. Yox, mən heç nə unutmuram. İndi yenə də deyirəm, polisə daş atan utanmalıdır - öz ailəsi qabağında, uşaqları qabağında, ailə üzvləri qabağında, ictimaiyyət qabağında. Çünki o eybəcər mənzərəni ictimaiyyət görüb. Ona görə mən tapşırıram, bir həftə vaxt verirəm, həm mənə, həm ictimaiyyətə məlumat verilməlidir və məsələ araşdırılmalıdır. Ekologiya və Təbii Sərvətlər Nazirliyi nə üçün bu məsələyə diqqət yetirməyib, biganə qalıb və mən tapşırıq verəndən sonra gediblər, gəliblər, nəticə haqqında heç bir məlumat yoxdur.

Burada işləyən xarici şirkətlər və yerli şirkətlər Azərbaycan qanunlarına hörmət etməlidirlər. Hörmət etməyəcəklərsə, onların fəaliyyəti burada mümkünsüz olacaq. Baxmayaraq ki, pay bölgüsü haqqında saziş əsasında xarici investor Gədəbəydəki qızıl yataqlarını istismar edir, baxmayaraq ki, uzun illər burada çalışır, Azərbaycan qanunlarına, ekoloji tarazlığa - bütün bunlara hörmət edilməlidir. Onu da bildirməliyəm ki, bizim dövlət şirkətimiz "AzerGold" da qızıl yataqları istismar edir. Amma mənə verilən məlumata görə, o sahədə bütün ekoloji normalara riayət edilir. O cümlədən yerli icmalarla təmaslar qurulub, müxtəlif humanitar aksiyalar keçirilir, insanlar kütləvi surətdə işə cəlb olunub. Bax, bu yanaşma Azərbaycan şirkəti tərəfindən göstərilən yanaşmadır. O yanaşma isə xarici şirkət tərəfindən göstərilən yanaşmadır. Bu, dözülməzdir. Xarici şirkətin nümayəndələri də dəvət edilməlidirlər. Əgər bu günə qədər dəvət edilməyiblərsə, Nazirlər Kabinetinə onlar izahat verməlidirlər. Yenə də deyirəm, bir həftə ərzində mənə və ictimaiyyətə məlumat verilməlidir. Orada təbiətə, insanların sağlamlığına zərrə qədər təhlükə varsa, o fəaliyyət dayandırılmalıdır. Vəssalam!

Bu gün dünyada ekologiyanı korlayan şirkətlər müflisləşir. Onlar öz ölkələrində belə hərəkət edə bilərdilərmi, gedib göl qursunlar, oraya zibil, zəhər töksünlər. Onları orada ayaqlarından asardılar. Elə iş verərdilər ki, ömürlərinin sonuna qədər həbsxanada yatardılar. Amma burada hesab edir ki, nə istəyir onu da edir. Çünki gedib kimisə görüb, kiməsə salam verib, gedib kiməsə nəsə pay verib. Bunun başqa izahatı ola bilməz. Dözülməz haldır - bütövlükdə həm oradakı təxribatçıların hərəkətləri, həm xarici şirkətin fəaliyyəti, həm də bizim nazirliyimizin fəaliyyəti. Yeganə olaraq burada özünü ləyaqətlə aparan Azərbaycan polisi idi. Onu hər kəs bilməlidir. İndi bəziləri ağızlarını büzürlər. Gedin, açın gözünüzü baxın, Amerika polisi ildə neçə nəfəri öldürür - 1000 nəfəri. Fransa polisi neçə nəfəri öldürür və nəyə görə öldürür? Bu yaxınlarda Fransa polisinin əməllərini bütün dünya gördü. Mən onlara bəraət qazandırmıram, o dözülməzdir. Əfsuslar olsun ki, insanları öldürən o polisin mütləq əksəriyyəti məsuliyyətdən yayınır. Bir müddətdən sonra onları ya ümumiyyətlə məhkəmədə buraxırlar, ya da ki, şərti iş verirlər. Bizim polis gecə-gündüz soyuqda, istidə, dağda asayişi qoruyur. Bizim Daxili Qoşunlarımız Qarabağda müharibə zamanı şəhid verib. İndi kimsə gəlsin, polisə ləkə vursun. Mən buna imkan verməyəcəyəm və hər kəs bunu bilsin - təxribatçılar, o təxribatlara uyanlar və bütün ictimaiyyət.

Bir məsələni də qeyd etməliyəm. Bu da bu günlərdə "Abşeron" qazkondensat yatağından çıxarılan ilkin qazın əhəmiyyəti ilə bağlıdır. Bu, doğrudan da çox əhəmiyyətli hadisədir. Çünki bu günə qədər bizim ixraca bağlı əsas qaz resursumuz "Şahdəniz" qaz-kondensat yatağı idi. Bu gün bizim artıq iki böyük qazkondensat yatağımız var. "Abşeron" qaz yatağı ilə bağlı bizim ümidlərimiz böyük idi. Bilirdik ki, "Abşeron" qaz-kondensat yatağı böyük ehtiyatları özündə ehtiva edir. Bir neçə gün bundan əvvəl mənə məlumat verildi ki, ilkin qaz hasil edildi, debitlər də çox yaxşıdır. Hətta bir quyudan "Şahdəniz" qaz yatağından da daha çox qaz və kondensat hasil edilir. Əlbəttə, "Şahdəniz" qaz yatağından "Abşeron" yatağı ehtiyat nöqteyi-nəzərindən daha kiçikdir, ilkin hesablamalara görə təqribən üç yüz milyard kubmetrdir. Amma mən tam əminəm ki, daha çox olacaq. İndidən demək, əlbəttə ki, düzgün deyil. Ona görə bu, bizim həm enerji təhlükəsizliyimizi daha yüksək səviyyədə təmin edəcək, həm də ixraca gedən qazın həcmi ildən-ilə artacaq - təkcə "Şahdəniz" yatağı hesabına deyil, o cümlədən "Abşeron" yatağı hesabına.

**"Abşeron"un birinci fazası artıq icra edilir və yəqin ki, SOCAR öz xarici tərəfdaşları ilə bu yatağın ikinci fazasının işlənməsi ilə bağlı tezliklə daha fəal danışıqlara başlamalıdır. Yenə də deyirəm, biz gözləyirdik ki, kəşfiyyat olacaq, amma sözün düzü, bu qədər gözəl nəticələri gözləmirdik. Bu, çox gözəl bir xoş xəbər oldu və Azərbaycanın enerji potensialına kölgə salmağa çalışan bəzi dırnaqarası ekspertlərə də çox yaxşı, tutarlı cavab olmuşdur. Ona görə bundan sonra bizim qaz ixrac planlarımız daha tez bir zamanda və daha böyük həcmdə təmin ediləcək.**

# ZƏLZƏLƏ VƏ İNSANIN QƏDƏRİ

## QURANİ-KƏRİM ZƏLZƏLƏDƏN QORUYARMI?

**Türkiyədə dağıdıcı zəlzələ baş verdi. Bu zəlzələni qiyamət əlaməti sayanlar, tektonik silahlara, dış güclərə, qədərə bağlayanlar oldu, var, zəlzələ ilə bağlı o qədər siyasi, dini, ədəbi miflər ortaya çıxdı ki! Uydurmalara bir-bir münasibət bildirək:**

**Birincisi,** qiyamət günü yanlış anlaşılır, onu dağılış, çöküş, kainatın sonu kimi dəyərləndirirlər. Qiyamət Qurani-Kərimə - ilahi kitablara bağlı termindir, dağılmanı deyil, çöküşdən sonrakı halı – yenidən dirilişi, qiyam etməyi, ayaqüstə qalxmağı ifadə edir. Qurani-Kərim kainatın yox olmasını son saat anlayışına yükləyir, buyurur ki, son saat birdən, gözlənilmədən, qəflətən gələcək. Sual budur: gözlənilmədən gələcək bir şeyin əlaməti olarmı, qiyamətin əlamətləri ilə bağlı hədislər uydurma deyilmi? Allah Rəsulu Allahın ölçülərinə zidd sözlər söyləməz.

**İkincisi,** deyirlər ki, zəlzələni dış güclər tektonik silahlarla törətdilər. Bu da ağ yalandır, bir suallıq canı var: bəs əlli, yüz, iki yüz, beş yüz, min il ... öncə, tektonik silahların olmadığı bir dövrdə 7.7-dən daha dağıdıcı zəlzələləri kim törətdi? XI-XII yüzilliklərdə Təbrizdə, Gəncədə baş verən zəlzələləri Qətarn Təbrizi, gəncəli şairlər elə təsvir ediblər ki, ağlamadan oxumaq olmur. Dış güclərin tektonik silahlarla bir ölkəni xaraba qoymaq imkanı varsa, orduya, silahlara niyə bu qədər pul ayırır, siyasi, ideoloji, iqtisadi, diplomatik oyunlar qururlar?

**Üçüncüsü,** qədər anlayışını yanlış izah edir, ona insandan heç bir şey asılı deyil mənası yükləyir, bu yolla da məsuliyyətdən qaçırlar. "Qədər" sözü də, "zəlzələ" sözü də ərəbcədir. "Qədər" sözünün əsas mənaları bunlardır: "qanun", "ölçü", "sistem", "nizam", "güc yetirmək", "sahib olmaq", "qiymət", "plan"... anlamları da var – Qurani-Kərimdə "q-d-r" kökündən törəmiş sözlər yüz otuz iki dəfə işlədilmişdir. İlahi mətndə "zəlzələ" sözü də var, bu sözə son saat bağlamında yer verilmişdir, "titrəyiş", "sarsıntı" mənalarını daşıyır – Qurani-Kərimin yüz on dörd surəsindən birinin adı Zəlzələdir.

**Dördüncüsü,** cahiliyyə ərəbləri qədərə insandan bir şey asılı deyil, hər şey öncədən yazılmışdır mənası verirdilər. Qurani-Kərim nazil oldu, qədər anlayışına əsl mənasını yüklədi. Əməvilərin hakimiyyəti dövründə qədər termini semantik terrora məruz qaldı, içi boşaldıldı, Allahın verdiyi mənadan imtina olundu, siyasi məqsədlərə uyğun yanlış anlam yükləndi. Səbəb də bu idi: Əməvilərin hakimiyyətinin hüquqi əsası yox idi, onlar iqtidarı hiylələrlə, savaşlarla, zülmlərlə ələ keçirmişdilər. Siyasi iqtidara ideoloji əsas yaratmaq üçün dedilər ki, hakimiyyət bizim qədərimizdir, Allah istəməsə idi, hakimiyyət bizim olmazdı – o, öncədən hakimiyyət haqqını bizə yazıb. Nəticədə, Qurani-Kərimin inşa etdiyi qədər anlayışının içi boşaldıldı, o, gerçək mənasını itirdi, alın yazısı oldu, cinayətləri gizləmək, məsuliyyətdən qaçış vasitəsinə çevrildi sonrakı dönəmlərdə insanın qədəri öncədən yazılmışdır tezisini müdafiə edən məzhəblər ortaya çıxdı.

**Beşincisi,** Allah buyurur ki, O, hər şeyi bir qədər, ölçü, qanunla yaratmışdır (54/49), yəni Allahın standartı var, Onun təsadüf adlı qanunu yoxdur, təsadüf olsa, elm, araşdırma, inkişaf olmaz, hər varlıq bir elmə, qanuna, ölçüyə, qədərə bağlıdır, onu öyrənmək də alimin işidir.

**Altıncısı,** dedik ki, yaradılan hər varlığın bir ilahi qanunu var, Günəşin, Ayın hərəkəti, suyun axması, küləyin əsməsi, çiçəyin açması, ürəyin, qaraciyərin, böyrəyin işləməsi bir qanunla gerçəkləşir, ürəyin işləmə qədəri, ölçüsü, qanunu pozulanda xəstələnir, müalicə ürəyi qədərinə - fitrətinə uyğunlaşdırmaqdır, sağlamlıqla bağlı qədər pozulanda xəstəliklə bağlı qədər, ölçü ortaya çıxır, sağlamlığın qanunu olduğu kimi xəstəliyin də qanunu olduğu kimi, qədəri var, ölçü olduğuna görə elm, əmək, arayış, təhsil, öyrənmək, alim də var.

**Yeddincisi,** zəlzələ də bir qanun, ölçü, qədərlə baş verir, onun da elmi, alimi var. Allah buyurur ki, zəlzələ olacaq, o, ayədir, təbiət hadisəsidir. Zəlzələ nəticəsində torpaq özünü yeniləyir, bütün mineral, müalicəvi sular zəlzələnin nəticəsi, bərəkətidir, zəlzələ olmasa, dağ silsilələri olmaz – dağlar su xəzinələridir, ey insanlar, zəlzələ hər an ola bilər, işlərinizi bu qanuna – qədərə uyğunlaşdırın, binalarınızı onun tələblərinə uyğun tikin, zəlzələni öyrənən alimlər yetişdirin, onların elminə inanın, bu elmə görə hərəkət edin, zəlzələ şüuruna yiyələnin, tədbirli olun, tədbirsiz, əməksiz təvəkkül yoxdur.

**Səkkizincisi,** Allahın qədər qanunu insanı məsuliyyətdən azad etməz, əksinə, ona məsuliyyət yükləyər, belə olmasaidi, insana ağıl, iradə, vicdan verilməsinin, Kitablar, Rəsullar göndərilməsinin, əməyin, mükafatın, cəzanın, cənnətin, cəhənnəmin, hər kəsə yalnız əməyinin qarşılığı var (53/39), iman edənlər və saleh əməli olanlar qurtulmuşdur (113/3), Biz insanın qədərini öz əməyinə bağlı qıldıq (17/33), Məndən istəyin ki, verim (40/60), istəyən iman etsin, istəyən küfür etsin (18/29), bir toplumun fərdləri öz iç dünyalarını dəyişdirmədikcə Allah da o toplumun gedişatını dəyişdirməz (13/11)... ayələrinin anlamı qalmazdı.

**Doqquzuncusu,** qədər anlayışını sadə misallarla belə izah edə bilərəm: futbol oyununun qanunları var, bu ölçülər əsasında necə oynamaq, qələbə qazanmaq, məğlub olmaq futbolçulardan asılıdır – çalışmırsansa, məğlub olursansa, bunun məsuliyyətini Allahın üzərinə atmaq haqqın yoxdur. Qoşma, qəzəl, bayatı janrlarının qanunları var, ancaq bu ölçülərə uyğun şeir yazmaq şairin ağlından, istedadından, qabiliyyətindən asılıdır – gözəl şeir yaza bilmirsənsə, məsuliyyət sənə aiddir. Şahmatın qaydaları bəllidir, hər fiqurun hərəkət yolu var, ancaq necə oynamaq şahmatçıdan asılıdır, qələbənin, ya da məğlubiyyətin məsuliyyətini şahmatçı daşıyır. Teatr tamaşasının, filmin senarisi var, ancaq obraz seçmək, onu necə oynamaq aktyorun işidir. Sizə verilən imkanı xeyrə də, şərə də çevirə bilərsiniz, belə ki, iradəli varlıqsınız, savab da, günah da buna uyğundur, seçim də, seçimin məsuliyyəti də sizə aiddir.

**Onuncusu,** 7.7 ölçüsündə zəlzələnin olması qədərdir – bir qanunla baş vermişdir, ancaq zəlzələdə qırx beş min insanın ölməsi qədər deyildir, qədərin-qanunun pozulmasının nəticəsidir, bir qədərə əməl etməyəndə onun tərsi olan o biri qədər işə düşür. Ölçüyə, qanuna, qədərə əməl etmək nemətin, onu pozmaq fəlakətin yolunu açır. Qırx beş min insanın ölməsi haramın, rüşvətin, elmsizliyin, məsuliyyətsizliyin, zəlzələ şüurundan məhrumluğun, qanunsuzluğun nəticəsidir, məsuliyyətini insanlar daşıyırlar.

**On birincisi,** Türkiyə zəifdir, Türkiyə güclüdür, ona görə zəifdir ki, zəlzələdən öncə binanın zəlzələyə davamlı olmasını tələb etməz, yoxlatmaz, zəlzələni doğru tanımaz, saxta qədər anlayışı var, qədərçidir, Allah kərimdir, boş ver deyər, borc-xərc ev alar, sıxıntılardan qurtardığını zənn edər. Türkiyə güclüdür, zəlzələdən sonra mərhəmət duyğusu hərəkətə keçər, birləşər, varını-yoxunu toplayar, yardımlaşar, paylaşar. Çıxarılan dərs, nəticə budur: Türkiyədə duyğu ağılın, qədərçilik məsuliyyətin, cəhalət elmin önündədir, Türkiyə faciədən qurtulmaq üçün ağılla duyğu arasında tarazlıq qurmalı, duyğunu ağıla tabe etməli, zəlzələni dış güclərə, tektonik silahlara, saxta qədər anlayışına bağlamamalı, elmə yönəlməli, tədbir almalı, cəhalətdən qurtulmalıdır. Qədərçiliyi – insandan bir şey asılı deyil anlayışını türk millətinin ağlına, qəlbinə, vicdanına, davranışına, əxlaqına yerləşdirən, bu yolla onu tənbəlliyə, məsuliyyətsizliyə alışdıran, sorğusualdan, etirazdan məhrum edən siyasətçilər, din tacirləri, saxta din satanlar utansın.

**On ikincisi,** xurafəçi, ağlını təriqətinə kirayə vermiş, iki daşın arasında təriqətinin saxta din anlayışını xilas etməyə çalışan din taciri deyir ki, dağıntıdan sağ çıxan bəbəkləri uçqunun altında qaldıqları günlərdə mələklər yedirtmişdir – elədirsə, mələklər uçqunun altında can verən, acından ölən o biri körpələrin qarnını niyə doyurmadı? Xurafəçi deyir ki, evinizin qapısına mülkün gerçək sahibi Allahdır ayəsini yazsanız, zəlzələ sizə bir şey etməz – Türkiyənin zəlzələ olan ərazisi dindar bölgədir, demək olar ki, hər evdə içində bu ayənin də yazıldığı QURANİ-KƏRİM var – o halda, içində QURANİ-KƏRİM olan evlər niyə qorunmadı, içində namaz qılınan, QURANİ-KƏRİMLƏR olan, minarələrindən azanlar oxunan məscidlər niyə dağıldı? Deyirəm ki, QURANİ-KƏRİM zəlzələdən qoruyar: QURANİ-KƏRİMİN hökmlərinə əməl etsəniz, işi - əmanəti əhlinə versəniz, binaları sağlam tiksəniz, məsuliyyətli olsanız, zəlzələ şüuruna yiyələnsəniz, qorunarsınız, itkiləriniz az olar. QURANİ-KƏRİM zəlzələdən qoruyan KİTAB deyil, zəlzələyə davamlı binalar tikilməlidir anlayışına sahib, məsuliyyətli, əxlaqlı, vicdanlı insanlar inşa edən KİTABDIR.



**On üçüncüsü,** Zəlzələyə dayanıqlı binalar tikmək üçün öncə harama qarşı dayanıqlı, ağıllı, elmli, əxlaqlı, məsuliyyətli insanlar – mütəxəssislər yetişdirməliyik, insan düzəlməsə, bina düzəlməz - ən dağıdıcı zəlzələ ağılın, əxlaqın, vicdanın, məsuliyyətin çökməsidir. Dayanıqlı insanlar ailədə, məktəbdə, universitetdə, cəmiyyətdə yetişir, ailənin, məktəbin, universitetin, cəmiyyətin harama, yalana, saxtakarlığa, oğurluğa, rüşvətə dayanıqlı insanlar yetişdirmək imkanı az, zəif, yetərsizdirsə, təhsilə, tərbiyəyə maya qoymuruqsa, uçqunlara maya qoyacağıq. Zəlzələni unutmayaq, biz onu unutsaq da, o bizi unutmaz, zəlzələ qanundur, gələr, tədbirli olaq, buna inanaq ki, Allah çarəsizliyin deyil, çarənin adıdır, hərəkət bizdən, bərəkət Allahdandır.

**Siracəddin Hacı**

# Azərbaycan üçtərəfli razılaşmadan çıxa bilər: İlin sonuna kimi vaxt verildi



Politoloq Cümşüd Nuriyevin müsahibəni təqdim edirik:

***- Cümşüd bəy, Azərbaycanın atacağı addımlar qətiləşdikcə separatçılar Rusiyaya üz tuturlar. İndiki halda Rusiyadan Qarabağdakı qondarma rejimə necə yardım edilə bilər?***

- Əslində bu gün Azərbaycan ərazisində olan separatçılar elə Rusiyanın saxladığı tör-töküntülərdir. Çünki bu imperiyanın "parçala, hökmranlıq et" taktikası dəyişməyib. Onlar da ermənilərdən son 200 ildə ancaq bu cür məqsədlər üçün istifadə ediblər. İndi də həmin siyasəti davam etdirirlər. Sadəcə olaraq Azərbaycanın gücünü gördükcə Rusiya tərəfi özünün agentura şəbəkəsini daha geniş işə salır. Çünki bu gün Qarabağda olan separatçıların ataları-babaları Rusiyanın agenti olub. Amma fakt odur ki, Rusiya onların əli ilə Azərbaycanla üz-üzə gəlmək istəyir. Bunu da Azərbaycan görür, bilir.

***- Sizcə, bu necə baş verəcək?***

- Bu, Rusiyada alınmayacaq. Çünki Rusiya öz daxili problemlərini, həm də Ukraynadakı uğursuzluqlarını kompensasiya etməyə çalışır. Eyni zamanda Cənubi Qafqazda möhkəmlənmək istəyir. Hazırda isə Cənubi Qafqazın açar dövləti Azərbaycandır. Gürcüstanda, Ermənistanda ruslar özlərinə yer ediblər. Azərbaycanda da ancaq sülhməramlı adı ilə Qarabağda mövcuddur. Çalışdıqları isə odur ki, onların buradakı mövcudluğu daimi olsun.

***- Azərbaycan bu hallara qarşı hansı yanaşmanı ortaya qoya bilər?***

- Azərbaycan birtərəfli qaydada üçtərəfli bəyanatdan çıxmalıdır. Əgər sülh sazişi bu ilin axırına qədər imzalanmasa, bu baş verəcək. Amma görünən odur ki, Ermənistan ilin sonuna kimi sülh sazişinin imzalanmasına hazırdır. Bu isə avtomatik olaraq sülhməramlıların bölgədən çıxması deməkdir. Sülh sazişi imzalandıqdan sonra rus sülhməramlılarının bölgədə qalmasına ehtiyac duyulmayacaq. Rusiyanın xarici siyasət kursundakı son gedişlər, Azərbaycanla bağlı olan açıqlamalar da diqqətdən yayına bilməz. Əslində onlar bu cür yanaşmalarla Azərbaycanı arxayın salmağa çalışırlar.

***- Burada Rusiyanı narahat edən səbəb nədir?***

- Ermənilərin əli ilə törədilən təxribatlar bu məqsədlərə xidmət edir. Azərbaycan Ordusu isə sadəcə olaraq çox ustalıqla bu hallara qarşı çıxır və dəf edir. İndiki halda rusları narahat edən odur ki, Azərbaycan antiterror əməliyyatları icra edə bilər. Bu onlar üçün əlavə çətinlik yaradacaq. Çünki razılaşmanın 4-cü bəndinə Rusiya tərəfi də əməl etməyib. Faktiki olaraq bu gün Qarabağda 10 minə yaxın qanunsuz silahlı qüvvə var.

***- Laçın yolundakı postun yenidən gündəmə gətirilməsi nə ilə bağlıdır?***

- Azərbaycan Qarabağda antiterror əməliyyatlarına başlasa, orada olan muzdlular, xarici ölkələrin hərbçiləri, "Vaqner"in qalıqları üzə çıxacaq. Onlar da bunun ifşa olacağından narahatdır. Ötən il Azərbaycanla 43 bəndlik sülh sazişi imzalayan Rusiya üçün bu əlavə problem deməkdir. Bunun Rusiya tərəfindən pozulması, hüquqi cəhətdən həmin faktların aşkara çıxması çox acı nəticələrə səbəb olacaq. Bu birmənalı olaraq Rusiyanın Qafqaz siyasətinin sonunu gətirəcək. Sözsüz ki, Rusiya tərəfi də bunu yaxşı bilir. Ona görə də, Qarabağda ermənilərin əli ilə təxribata əl atır. Amma bunlar da keçərli deyil. Rusiyanın Azərbaycanla bərabərhüquqlu statusda çıxış etməkdən başqa yolu qalmayıb. Bununla da siyasi səmimiyyət yaradılmalıdır. Bunun əksi onun Qafqazdan çıxmasını labüd edir.

***Tapdıq Qurbanlı***



# Qarabağda antiterror əməliyyatları başlayır:

Rusiya necə mane olacaq?

**Azərbaycanın Qarabağla bağlı məqsədləri bəllidir. Ölkəmizin bu məsələdə hara qədər gedəcəyi, hədəfi də aydındır. Artıq bir müddət sonra Laçın sərhəd-buraxılış məntəqəsindən keçən ermənilərdən Azərbaycan pasportu tələb olunacaq. Bu, Azərbaycanın addım-addım gördüyü işlər sırasındadır.**



Bunu politoloq Fərhad Mehdiyev deyib.

O qeyd edib ki, Qarabağda qalmaqda olan qanunsuz silahlılara qarşı Azərbaycanın antiterror əməliyyatlarına başlamasının sadəcə olaraq vaxtı var: ***"Azərbaycan gözləyir ki, ermənilər dinc yolla silahı yerə qoysunlar. Amma bu olmadığı tərzdə Azərbaycanın yanaşması sonsuz olmayacaq. Sözsüz ki, Rusiya buna qarşı çıxacağını desə də, onun bu planı alınmayacaq. Ukrayna müharibəsi fonunda hərbi güc və potensialının zəiflədiyi şəraitdə Rusiya bunu edə bilməyəcək. Çünki Rusiya indiki şəraitdə Azərbaycanla münasibətlərdən də asılıdır. Blokada şəraitində Azərbaycan Rusiyaya bu prosesdən çıxmağa mümkün qədər kömək edir".***

Politoloq hesab edir ki, Rusiya sadəcə olaraq Azərbaycanı antiterror əməliyyatlarından çəkindirməyə çalışır: ***"Amma sözsüz ki, Azərbaycan antiterror əməliyyatlarına başlamaq istəsə, bunu edəcək. Rusiya təbii olaraq buna dəstək vermiş olsa, Azərbaycan bunu daha sürətlə edəcək. Sadəcə olaraq burada ağılabatan dərəcədə gözləmə müddəti var. II Qarabağ müharibəsinə də Azərbaycan bəlli bir müddət gözlədikdən sonra başladı. Burada isə yanaşmalar sonsuz olmayacaq".***

Fərhad Mehdiyevə görə, Rusiya-Azərbaycan münasibətləri çox da gərgin olaraq qalmayacaq: ***"Zaman-zaman bu cür gərginlik olub və daha sonra münasibətlərdə yumşalmalar olub. İndiki halda da bu tendensiya izlənəcək".***

# Laçın sərhəd-buraxılış məntəqəsindən qaçaqmalın keçirildiyi aşkarlandı...

***Dövlət Sərhəd Xidməti Beynəlxalq Qırmızı Xaç Komitəsinə (BQXK) məxsus nəqliyyat vasitələrində Laçın sərhəd-buraxılış məntəqəsindən qaçaqmalın keçirildiyini aşkarladı: bəyan olunmamış mobil telefon və aksesuarları, siqaretlər və yanacaq aparırlarmış;***



BQXK-nın Qarabağda qanunsuz fəaliyyətinə dair şübhələr əvvəldən var idi, misal üçün, komitənin ermənilərin daşınmasını "xəstə" adı altında həyata keçirdiyi istisna edilməməlidir. Qaçaqmalçılıq faktı bu ehtimalı daha da gücləndirir. BQXK-nın bu prosesdə iki marağı görünür:

***- Komitənin rəhbərliyi erməni əhalisinə "çıxış yolları" yaratmaqla Azərbaycana reinteqrasiya prosesinin qarşısını alır: rəsmi Bakının erməni əhalisinin təminatının komitə vasitəsilə Ağdamdan təmin edilməsi təklifinin qəbul edilməməsi də bunu deməyə əsas verir;***

***- Komitənin yerli nümayəndələrinin həm "xəstə daşınması"ndan, həm də qaçaqmalçılıqdan pul qazandığı istisna deyil;***

Qaçaqmalçılıq faktı BQXK-nın silah daşınması və casusluq fəaliyyətinə dair də şübhələr yaradır. Laçın sərhəd-keçid məntəqəsi qurulandan sonra silah daşınmasının qarşısı alınsa da, nə Ermənistan, nə də Xankəndindəki separatçılar bu planlarından əl çəkməyib. Və "bütün yollar bağlıdırsa, silahı haradan keçirə bilərlər" sualı diqqət BQXK-nın üzərinə yönəldir. Eyni zamanda, komitənin "humanitar missiya" ilə sərbəst hərəkət edən əməkdaşlarının Ermənistanın xeyrinə casusluq etmədiyinə də heç kim zəmanət verə bilməz.

Nəticə etibarilə beynəlxalq təşkilat "humanitar missiya" adı altında Azərbaycan ərazisində qanunsuzluq törədir. BQXK-nın Qarabağdakı fəaliyyəti isə ümumiyyətlə qanunsuzdur. Çünki bura Azərbaycan ərazisidir, Azərbaycan ərazisində fəaliyyət göstərən BQXK-nın ofisi başqa ölkədəki – Ermənistandakı nümayəndəliyə tabedir. Bunun nə qanuni, nə də məntiqi əsası yoxdur.

Rəsmi Bakının cari olaraq iki istiqamətdə addım atmasına zərurət var:

***Birincisi, BQXK-nın Qarabağdakı ofisi komitənin Bakıdakı nümayəndəliyinə tabe olmalıdır və bütün fəaliyyəti burada koordinasiya edilməlidir;***

***İkincisi, BQXK-nın qaçaqmalçılığına görə yenidən bağlanan Laçın sərhəd-keçid məntəqəsindən yüklərin daşınmasına ümumiyyətlə icazə verilməməlidir: rəsmi Bakı BQXK-ya erməni əhalisinin bütün ehtiyacının Ağdamdan təmin edilməsini təklif etmişdi, eyni təklif komitəyə yenidən təqdim edilməli və bu təmin olunmalıdır; BQXK-nın məqsədi həqiqətən də humanitar missiyadırsa, əhalinin ehtiyacının İrəvandan, yaxud Bakıdan edilməsinin onlar üçün fərqi olmamalıdır, əks təqdirdə, komitənin fəaliyyətinə icazə verilməməlidir.***

***Asif Nərimanlı***

### Ankara Rusiyaya da, Qərbə də öz şərtlərini diktə edir

# "TÜRKİYƏ MOSKVANIN NAZI İLƏ OYNAMIR"

### Və Ərdoğandan növbəti tarixi gediş

**Ərdoğan növbəti dəfə təkcə Putindən yox, əksər dünya liderlərindən iki baş üstün siyasətçi olduğunu isbat etdi...**



*“Ərdoğanın “dostu” Vladimirlə necə rəftar etməyə dair böyük təcrübəsi var – istəsə boğazları açar, istəsə bağlayar, istəsə (Rusiyanın) təyyarəsini vurar, istəsə Türkiyə xüsusi təyinatlıları məsələn, Suriyada “özünü yaxşı aparmayan” kəllələri alar, istəsə lap açıq şəkildə Liviyada, yaxud Suriyada onlarla(Rusiya ilə) döyüşər və sair. Türklər heç vaxt Moskvanın nazı ilə oynamır. Kreml onlardan daha çox asılıdır, nəinki onlar Kremldən. Ərdoğanın Putindən iki baş üstün siyasətçi olduğunu isə hər kəs bilir”.*

Bunu Ukrayna Prezident Ofisinin sabiq müşaviri, tanınmış hərbi-siyasi təhlilçi Aleksey Arestoviç Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın *“Azov”* komandirlərinin Kiyevə təhvil verməsini və *“Ukraynanın NATO üzvlüyünə tam layiq olduğunu”* söyləməsini şərh edərkən deyib.

Doğrudan da Ərdoğan bu qərarı ilə Rusiya ilə heç kimin rəftar edə bilmədiyi şəkildə davranmağı bacardığını bir daha göstərdi. Bu, bir tərəfdən Türkiyənin hansısa qərarı verərkən heç kimlə hesablaşmadığını ortaya qoyursa, digər yandan “taxıl sazişi”ni pozmaq niyyəti barədə bəyantlar verən Kremlə *“qulaqburması”*, ən əsası isə Türkiyənin hansı safda durduğunun nümayişi oldu.




Kremlin sözçüsü Dmitri Peskov Türkiyənin məlum qərarına münasibət bildirərkən deyib ki, *“Kremldə Türkiyənin Moskva ilə dialoqu yüksək səviyyədə saxlayacağına ümid edirlər”.* Peskov bildirib ki, Ankara və Kiyev bu qərarı verərkən ilkin razılaşmanı pozublar, lakin Rusiya ilə Türkiyə arasında sıx, inkişaf etmiş, hərtərəfli əlaqələr var. Amma bununla yanaşı, *“müəyyən fikir ayrılıqları”* da qalır. Vəssalam.

Yəni, Türkiyənin iradəsi və qərarları heç kim üçün müzakirə mövzusu deyil və Ankara yalnız öz milli maraqlarından çıxış edir. Necə ki, İsveçin NATO üzvlüyünə razılıq qərarı da Türkiyənin öz milli maraqları əsas götürülərək verildi. Məlum olduğu kimi, uzun müzakirələrdən, ABŞ-dan Avropa İttifaqına qədər bütün Qərb siyasi isteblişmentinin xahiş və yalvarışlarından sonra nəhayət, R.T.Ərdoğan İsveçin NATO-ya üzv qəbuluna razılıq verdi.

*“CNN”* adını çəkmədiyi Türk diplomatlarına istinadla bildirib ki, İsveç Türkiyənin irəli sürdüyü bütün şərtləri qəbul edib. Rəsmən bu şərtlərin başında Türkiyənin uzun illərdir mübarizə apardığı terror mövzusu dursa da, siyahıda digər önəmli siyasi və iqtisadi məsələlərin də olduğu şübhəsizdir. Özü də söhbət yalnız İsveçdən yox, ümumilikdə kollektiv Qərbdən gedir.

İsveçin Türkiyəyə veribalacağı şeylər çox deyil. İsveçin NATO üzvü olub-olmaması da Türkiyə üçün birinci dərəcəli, həyati önəm daşımır. Ancaq bu üzvlüyə yaşıl işıq yandırılması müqabilində Türkiyənin Qərbdən alacaqları İsveçin üzvlüyü ilə müqayisədə əlbəttə ki, daha miqyaslı və önəmlidir. Təkcə rəsmi açıqlamalar onu deməyə əsas verir ki, Türkiyənin Avropa İtifaqı ilə vizasız gediş-gəliş şərtlərinin müəyyənləşdirilməsindən tutmuş, Ankara ilə gömrük sazişinin genişləndirilməsi, Türkiyə üçün güzəştli ticarət mühitinin yaradılması, maliyyə-iqtisadi əlaqələrin genişləndirilməsinə qədər Ankara üçün vacib olan bir çox razılaşmalar əldə olunub.



Hələ bütün bunlar rəsmən elan olunan şərtlərdir və yəqin ki, mətbuata çıxarılmayan digər məsələlər də var. Yəni, Türkiyə bu qərarı hansısa təzyiq, hədə-qorxu yox, öz milli maraqlarından çıxış edərək verib. Türkiyənin indiki çətin maliyyə-iqtisadi vəziyyətini nəzərə alındıqda isə bu gedişlərin Ankara üçün önəmini hesablamaq daha asan olar...




*“Bu axşam Türkiyənin, İsveçin və NATO Baş katibinin bəyanatını və Prezident Ərdoğanın İsveçin üzvlüyünə dair sənədin parlamentdə tezliklə ratifikasiyaya veriləcəyinə dair vədini alqışlayıram. Mən Avro-Atlantika regionunun müdafiəsinin gücləndirilməsi üzərində Prezident Ərdoğanla və Türkiyə ilə işləməyə hazıram”.* Bunu isə ABŞ Prezidenti Co Bayden bəyan edib.

Bütün bunlar o deməkdir ki, Türkiyə Ankara üçün həyati əhəmiyyət daşımayan İsveçin NATO-ya üzvlüyünə razılıq müqabilində həm böyük maliyyə-iqtisadi, həm də siyasi dividendlər qazana bildi.

Nəticədə Türkiyə və Prezident Rəcəb Tayyib Ərdoğan yenə bütün dünyanın əsas gündəm mövzusudur və dünyanın gələcək taleyinin müəyyənləşdirilməsində vacib oyunçulardan biri qismində çıxış edir.

Onu da unutmayaq ki, Ərdoğanın həm Rusiyaya, həm də Qərbə qarşı bəzən həddindən artıq sərt görünən iradə nümayişinə rəğmən, yenə də məhz Türkiyə gələcək Rusiya-Ukrayna, Rusiya-Qərb danışıqlarının əsas meydançası olaraq qalır. Buna nail olan Ərdoğan isə növbəti dəfə Arestoviçin dediyi kimi, təkcə Putindən yox, əksər dünya liderlərindən iki baş üstün siyasətçi olduğunu isbat edir...



***Cəlal Məmmədov***

# Mürəkkəb məsələlərin primitiv həlli olmur

2023-cü ildə ibtidai sinif üzrə sertifikasiya imtahanı üzrə müəllimlərin 55 faizi 30-50 bal, 35 faizi 0-29 bal, 10 faizi isə 51 və yuxarı bal toplayıb. Nəticə ondan ibarətdir ki, müəllimlərin 35 faizi sertifikasiyadan keçə bilməyib.

Biz dəfələrlə bildirmişik ki, müəllim kadrlarının sertifikasiyası onların hazırlıq səviyyəsini yüksəltmək üçün kifayət deyil. Biz bu prosesin heç bir mərhələsini dəyişmədən müəllimlərin hazırlıq səviyyəsini təkcə sertifikasiya ilə yüksəldə bilmərik. Bu natamam yanaşmadır problemə.

Prosesin bütün mərhələlərini düzgün qurmasaq bu problemləri həll edə bilməyəcəyik. Proses isə müəllimlərin ilkin hazırlığından başlamalıdır. Hələ 15 il əvvəl nazirlik "Fasiləsiz müəllim hazırlığı konsepsiyası və strategiyası" adlı sənəd hazırlamışdır. Amma bu konsepsiyanın reallamasına NK pul ayırmadı və iş yarımçıq qaldı.

Ümumən ölkədə son 30 ildə ali təhsil sahəsində sistemli islahat aparılmayıb. Olan tədbirlər kosmetik və təsirsiz olub. İslahat proseslərinə, o cümlədən universitetlərin normal fəaliyyəti üçün heç vaxt zəruri maliyyə vəsaitləri də ayrılmayıb. Bu müddət ərzində ölkədə ali təhsil problemlərini tədqiq edən nə tədqiqat mərkəzləri, nə beyin mərkəzləri, nə güclü ekspert qrupları yaradılmayıb, nə də sanballı elmi jurnallar təsis edilməyib.

Müəllim hazırlığı prosesinin fasiləsizliyi dağıdılıb. Ölkədə 20 ildir müəllimlərin təkmilləşdirmə sistemi yoxdur. Ən pisi isə budur ki, bütün bu məsələlər ekspertlər tərəfindən zaman-zaman qaldırıldığı halda, nazirlik daima belə təkliflərə biganə qalmışdır. Görünür problemləri kompleks və köklü həll etmək gündəlikdə olmayıb.



Keçən il imzalanan fərmana uyğun olaraq "Elm və Ali Təhsil" agentliyi artıq fəaliyyət göstərməli olduğu halda, hələ də heç nə yoxdur.

Müəllim hazırlığında olan bu qədər sistem problemləri görmədən, onları həll etmədən sertifikasiyanın ətəyindən yapışmaqla ETN heç nəyə nail ola bilməz. Bu gün atılan primitiv addımlar sadəcə 150.000 min müəllimi daim stressdə saxlamaq, onu nüfuzdan salmağa xidmət edir.

Millət vəkili Ceyhun Məmmədov həmişəki kimi, məsələyə peşəkar yanaşmaqla, "Buna görə savadsız müəllimlərin yetişdirildiyinin şahidi oluruq" adlı məqaləsində ciddi məsələlərə toxunur: " Sertifikasiyadan keçə bilməyən müəllimlərlə bağlı hansı addım atıla bilər? Bu problemin kökündə ali məktəblərdə təhsilin keyfiyyətinin və məzmununun yüksək səviyyədə olmaması durur. Bu gün universitetlərdə dərs keçirilir, imtahanlar təşkil edilir. Bunun ardınca deyirik ki, bu tələbələr yaxşı təhsil almayıb, onları yenidən sertifikasiyadan keçiririk. ETN prosesdən çıxış yolunu bunda görür. Hesab edirəm ki, bu proses ali məktəblərdə təhsilin səviyyəsinin yüksəldilməsi və məzmununun artırılması ilə paralel olaraq aparılmalıdır. Bu formada işlər həyata keçirilməsə, gələcəkdə çox çətin olacaq."

Millət vəkili daha sonra qeyd edir: "Problem ondandır ki, universitetlər təhsilin keyfiyyətinin artırılması ilə bağlı ciddi addım atmırlar. Buna görə də savadsız müəllimlərin yetişdirildiyinin şahidi oluruq. Növbəti mərhələdə universitetlərdə təhsilin məzmun və keyfiyyətini artırmalıyıq ki, bu problemləri yaşamayaq. Bu addımları atmasaq, istədiyimiz nəticələrə nail ola bilməyəcəyik. Bu məsələlərə həssas yanaşmalıyıq. Bu istiqamətdə addımlar atılmalıdır. Sertifikasiya davamlı çıxış yolu olmalı deyil. Həm universitetdə imtahan keçirək, həm də bu addımları ataq, bu çıxış yolu deyil", - deyə deputat bildirib.

Başqa bir millət vəkili Vüqar Bayramov isə "10 bal toplaya bilməyən müəllimin təhsil aldığı universitetdə monitorinq aparılsın" kimi təklif verir: "Sertifikasiya imtahanlarında iştirak edən 13 min 300 müəllimin və ya sınağa qatılanların 35 faizinin 30 balı toplaya bilməməsi yalnız orta deyil, eləcə də ali məktəblərində təhsilin keyfiyyətinin artırılması baxımdan bir siqnaldır. İmtahanlarda iştirak edənlərin 35 faizi 50 faizdən az nəticə göstərib. Eyni zamanda 223 müəllimin balı bir rəqəmli olub, yəni, onlar hətta 10 bal belə toplaya bilməyiblər".

Hesab edirik ki, müəllim hazırlayan universitetlərdə bu gün monitorinqə elə də ciddi ehtiyac yoxdur. Dünya universitetlərinin qlobal reytinq cədvəli ən yaxşı və ən obyektiv monitorinqdir, əgər ETN nəticə çıxara bilsə. Məncə monitorinqi ATM-də yox, ETN-də aparmaq lazımdır.

Necə olur ki:

***1. ATM-miz 20 ildir qlobal reytinqlərdə çox zəif nəticə göstərdiyi halda, ETN bu sahədə heç bir dönüş yarada bilmir?***

***2. Necə olur ki, zəif tələbə yetişdirən ATM-ni ETN hər dəfə akkreditasiyadan uğurla keçirir?***

***3. 13 ildir ETN müəllimləri özü seçib işə qəbul etdiyi halda, onların arasında zəif müəllimlər haradan və necə yaranır?***

Əgər ETN millət vəkillərinin və ekspertlərin də təkliflərı nəzərə almırsa, görəsdən hansı ideyalar əsasında öz "fəaliyyətini" qurur?

Axı mürəkkəb məsələlərin primitiv həlli olmur.



**Dos. İlham Əhmədov**

# Akif Məmmədovun 70 illiyi ərəfəsində "Seçilmiş əsərləri"nin təqdimatı oldu



7 iyul 2023 cü il tarixində Pedaqogika üzrə fəlsəfə doktoru, dosent Akif Məmmədovun 70 illiyi ərəfəsində çap olunmuş "Seçilmiş əsərləri"adlı kitabın təqdimat mərasimi keçirilib. "Mütərcim" nəşriyyatında işıq üzü görən kitaba alimin tədris vəsaitləri, elmi-metodiki məqalələri, ayrı-ayrı dilçi, ədəbiyyatşünas və metodist alimlərdən götürdüyü müsahibələr və digər yazıları cəm olmuşdur. Nəfis tərtibatda çap olunmuş kitabın ön sözünün müəllifi, redaktoru və tərtibçilərindən biri professor Telman Cəfərov nəşrin tərtib olunmasında və bu cür mükəmməl formatda ərsəyə gəlməsində Akif Məmmədovun həyat yoldaşı Sədaqət xanım Məmmədovanın və tələbəsi Gülnar Əhmədovanın da gərgin əməyi olduğunu qeyd etdi. Kitabın təqdimat mərasimini öz əhatəli çıxışı ilə açıq elan edən professor, Əməkdar müəllim Telman Cəfərov böyük alim və metodist Akif Məmmədovun elmi fəaliyyəti və pedaqogika sahəsində əvəzsiz xidmətləri barədə danışdı. Alimin Bakı Slavyan Universitetinin elmi həyatında mühüm rol oynadığı vurğulandı. Daha sonra Akif Məmmədovun həmkarları, dostları, yetirmələri onun haqqında maraqlı, kövrək, unudulmaz xatirələrini söylədilər. Çıxış edənlərdən Azərbaycan Universitetinin dosenti Səfər Məmmədov, Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti İlham Əhmədov, Bakı Slavyan Universitetinin dosenti Şəhla Əhmədova, Əməkdar müəllim İradə Nəbiyeva, onun yetirmələri və həmkarları Naibə Kərimova, Kərimova, Pərvanə Onurlu, Ruhəngiz Qəribova, Gülnar Əhmədova, Genel Məmmədova və digərləri Akif Məmmədovun həm dəyərli alim, həm səmimi iş yoldaşı, həm mehriban və həssas insan olduğunu xüsusi vurğuladılar.Yaradıcı müəllim, pedaqoq-alim Akif Məmmədovun Azərbaycan dilçiliyi elmində və publisistikasında həmişə öz dəst-xəttinin olduğu, neçə-neçə gənc müəllimin, alimin yetişib püxtələşməsində müstəsna rolu olduğundan danışan natiqlər öz çıxışlarında böyük alimin həm də dəyərli insan kimi işlədiyi kollektivdə daima hörmətlə qarşılandığını, sayılıb-seçildiyini vurğuladılar. Kitabın təqdimatında Akif Məmmədovun ailə üzvləri də iştirak edərək öz xatirələrini bölüşdülər. Bu işıqlı alimin əməllərinin bundan sonra da yaşayacağına, öyrənilib təbliğ ediləcəyinə əmin olduqlarını vurğuladılar. Sonda xatirə şəkilləri çəkildi və təqdimat mərasimi iştirakçılarına görkəmli alimin "Seçilmiş əsərləri" kibabının nüsxələri hədiyyə edildi.

***Prof. Telman Cəfərov***

# Varisin ədalət axtarışı

## Sara Srayevanın səksəkəli taleyi

Bütün bu mənfi cavablar Sara xanımı usandırmadı. Çox ağır şəraitdə yaşamasına baxmayaraq atasına bəraət almaq üçün o, səylərini əzmkarlıqla davam etdirirdi. Bu cavabı alandan dərhal sonra o, 1959-cu il iyunun 28-də Sov.İKP MK-ya məktub yazıb atası haqqında deyilənlərin doğru olmadığını bildirdi. Sara xanım Azərbaycanda çıxan məqalələrdə Tağıyevin guya Azərbaycan dilinin əleyhinə olduğu haqda məqamlara toxunaraq bunun böhtan olduğunu, onun atasının ana dilinin tətbiq edilməsi barədə hökumətə məktub yazdığını xatırladırdı. O, haqlı olaraq göstərirdi ki, *"alimlər kapitalizm dövrünün mənəvi-mədəni nailiyyətlərinin bəhrələrini xoşlayırlar, lakin kapitalizmin inkişafının maddi kökləri onların xoşuna gəlmir. Lap Krılovun təmsilində olduğu kimi, donuz palıdın qozasını xoşlayır, lakin onun kökünü xoşlamır. Mədəniyyətin inkişaf tarixi üzrə elm şöbəsində özbaşınalıq hökm sürür. Mən Sizdən xahiş edirəm, Nikita Sergeyeviç, tarixi mübahisələrin açıq müzakirəsini açıq disputlara həvalə edin və partiya rəhbərləri yanında bu müzakirələr tarix məsələləri üzrə marksizmleninizm elmi nəzəriyyəsinin tətbiqində səhvlərə yol verilməsinin qarşısını ala bilər".*

***(Əvvəli ötən sayımızda)***

Daha öncə yazdığı digər müraciətlərində Sara xanım xatırladırdı ki, Sovet dövründə Azərbaycan maarif və mədəniyyətinin, elm və səhiyyəsinin ən tanınmış təmsilçiləri olan qabaqcıl qadınlar məhz, Tağıyevin qızlar məktəbinin yetirmələrdir. Bu sırada o, Nabat xanım Nərimanovanın, əməkdar müəllimə Qumru xanım Nərimanovanın (hər ikisi Nəriman Nərimanovun qohumu), əməkdar müəllimə Sara xanım Əfəndiyevanın, professor Umnisə xanım Musabəyovanın, böyük bəstəkar Qara Qarayevin anası professor Sona xanım Axundovanın, Ayna Sultanovanın, Azərbaycan KP MK-nın keçmiş katibinin həyat yoldaşı həkim Xavər xanım Qarayeva-Şabanova, onun bacısı ixtisasca həkim olan Şəhrəbanu xanım Xasməmmədova-Şabanova, həkim Səkinə xanım Əlikişibəyova, elmi işçilər İzzət xanım Məcidova, Dostu xanım Səfərova, Təzə xanım Həşimova, Gövhər xanım Usubova, Məryəm xanım Sazonova, tanınmış bəstəkar Tofiq Quliyevin anası Yaxşı xanım Mahmudova,1 rəssam Reyhan xanım Topçibaşova, tanınmış həkimlər Firəngiz Novruzova, Həyatnisə Dilbazi, Cənnət xanım Muxranskaya, Səriyyə xanım Əhmədova, Səlimə xanım Yaqubova, Xədicə xanım Ağayeva, Adilə xanım Şahtaxtinskaya və digər qabaqcıl qadınların adını çəkirdi.

Sara xanımın atasının adını bərpa etmək uğrunda inadlı mübarizəsi az da olsa bəzi nəticələr verdi. Bir sıra nəşrlərdə Tağıyevin adı xatırlanmağa başladı. Respublika Qlavliti 1961-ci il fevralın 23-də Azərbaycan KP MK-ya yazırdı ki, son iki ildə müxtəlif nəşriyyatlardan yoxlama məqsədi ilə idarəyə göndərilən materiallarda Bakı milyonçusu və sənayeçisi Hacı Zeynalabdin Tağıyev bir sıra hallarda oxuculara xeyirxah, Azərbaycanda mədəniyyət və incəsənətin, maarifin inkişafına qayğı göstərən adam kimi təqdim edilir. Xəlil Əfəndiyev şikayətlənirdi ki, Qlavlit onun adını bu nəşrlərdən çıxarsa da, milyoner Tağıyevi mütərəqqi ictimai xadim kimi təqdim edən materiallar gəlməkdə davam edir. Belə materiallardan biri kimi o, Azərbaycan jurnalının 10-cu nömrəsinə



daxil edilmiş Vəli Məmmədovun məqaləsini göstərirdi. Senzorun məqalədən gətirdiyi nümunədə deyilirdi: *"1901-ci ilin sentyabr ayının 20-də Bakı milyonçusu Hacı Zeynalabdin Tağıyevin xidmətlərinin və fəaliyyətinin 50 illiyini qeyd etməyə hazırlaşırdılar. Yubileyi təntənəli şəkildə keçirmək üçün bir il əvvəldən ona hazırlaşırdılar. Tağıyev haqqında deyirdilər ki, o, kasıb çəkməçi ailəsində doğulub, onun 40 yaşı olanda varlanmağa başlayıb. Bakının ən böyük milyoneri, eyni zamanda zəhmətkeş kütlələrin ən böyük istismarçısı idi. Lakin kapitalizmin inkişafı ilə bağlı milli tərəqqinin meydana çıxması Tağıyevi də öz ardınca aparmağa başladı. XIX əsrin sonları kapitalizmin və milli burjuaziyanın inkişafının elə mütərəqqi bir dövrü idi ki, həmin vaxt bir çox kapitalistlər öz vicdanlarının imkan verdiyi dərəcədə ümumi milli tərəqqiyə kömək etməyə başladılar. Azərbaycanda Tağıyev birinci texniki sənətkarlıq məktəbini, birinci müsəlman qız məktəbini, toxuculuq məktəbi acdı və birinci teatr binasını tikdi. Tağıyev ictimai faydalı işlərə kömək etdi, çoxlu kasıb tələbələrə təqaüd verdi. Azərbaycanın maarif və mədəniyyət xadimlərinin Tağıyev kimi imkanı yox idi. Ona görə də onlar milli tərəqqi üçün Tağıyevdən istifadə edirdilər, onun ictimai fəaliyyətini bəyənirdilər".* 2 Bütün bu nəşrlərdən başqa Xəlil Əfəndiyev bildirirdi ki, bir sıra yerlərdə şifahi şəkildə də Tağıyevi maarifçi kimi təbliğ edirlər. O, qeyd edirdi ki, *"1960-cı ilin noyabr ayının 9-da Mərdəkan istirahət evində dincələnləri tarixi yerlərə ekskursiyaya aparıblar. İstirahət evinin işçisi Ə.Əliyev Bakı Şəhər Ekskursiyalar Bürosunun qısa məlumat kitabçasında göstərilən məscidlə yanaşı, Tağıyevin məzarını da ekskursiya iştirakçılarına göstərib. Ekskursiya zamanı Əliyev öz söhbətində Tağıyevi xeyirxah bir adam kimi təqdim edib, ekskursiya iştirakçılarına danışıb ki, Tağıyev çox mehriban adam olub, yoxsullara kömək edib, onlara pul verib, Bakıda universitetin binasını tikib, teatr, fabrik açıb, məktəb təşkil edib və s. Nəriman Nərimanov Tağıyevin fəaliyyətini müsbət qiymətləndirib. Ekskursiya iştirakçılarından biri Əliyevdən soruşub: Əgər o belə xeyirxah adam olubsa, nə üçün Tağıyevə yaxşı bir abidə qoymayıblar? Əliyev cavab verib ki, bu 1924-cü ildə olub və onda xalq elə də inkişaf etməmişdi. Bunun şahidi bizim senzor, Sov.İKP üzvü L.B.Avanesyan olub".*

Sonra Xəlil Əfəndiyev MK-ya məlumat verirdi ki, 1960-cı ilin payızında Azərbaycan Dövlət Universitetinin nəşriyyatı Möhbalı Qasımovun redaktorluğu ilə Abuzər Xələfovun altı çap vərəqindən ibarət olan *"Azərbaycanda kitabxana işi tarixindən (1870-1920)" adlı kitabçasını buraxmışdır. Müəllif orada 1894-cü ildə Nəriman Nərimanovun Bakıda qiraətxana açmasından yazarkən qeyd edir ki, Nərimanov və digər ziyalıların xahişi ilə qiraətxana çoxlu qəzet və kitabları milyoner Hacı Zeynalabdin Tağıyevin hesabına alırdı".*

Xəlil Əfəndiyev məlumat verirdi ki, Tağıyevin qızı onun atasını tanıyan adamlardan xatirələr toplayıb və onu Azərbaycan SSR Elmlər Akademiyasının Tarix İnstitutuna təqdim edib. Məlumatda həmin xatirələr içərisində Azərbaycan Dövlət Universitetinin professoru Feyzulla Qasımzadənin və M.F.Axundov adına Rus dili İnstitutunun işçisi Heydər Verdiyevin də xatirələrinin olduğu bildirilirdi. Senzorun məlumatına görə F.Qasımzadə öz xatirələrində yazırdı: *"Hacı Zeynalabdin Tağıyevin böyük kapitalist olmasına baxmayaraq, bununla yanaşı o, böyük maarifçi idi, yoxsullara kömək edirdi, faydalı adam idi. Tağıyev tək Mərdəkanda deyil, Azərbaycanın digər kəndlərində də məktəblər tikmişdi. Ümumiyyətlə Tağıyev elə şəxsiyyət idi ki, savadsız kəndliləri oxutmağa çalışır, yoxsullara kömək edir və öz xalqını sevirdi".1 Xəlil Əfəndiyevin məlumatına görə Heydər Verdiyev öz xatirələrində yazırdı ki, ya 1904-cü, ya da 1905-ci il olardı. Tağıyev öz fabrikində fəhlə gənclər üçün axşam məktəbi açmışdı və özü də məktəbə baş çəkirdi. Bir dəfə Tağıyev dərsə gəldi və bizi ciddi cəhdlə oxumağa çağırdı və dedi ki, sizin oxumağınız üçün mən bu məktəbi açmışam, bura yaxşı müəllimlər təyin etmişəm. Mənim övladlarım, oxuyun, sizə uğurlar arzu edirəm. Qısa zamanda mən ibtidai məktəbi qurtardım və onun nəzdində olan iki illik pedaqoji kursu bitirdim. Sovet dövründə isə ikinci Moskva universitetini və onun nəzdində aspiranturanı bitirdim".* Verdiyev sonra yazırdı ki, *"indi mən ali məktəbdə işləyirəm və maddi cəhətdən təmin olunmuşam. Bütün bunlar üçün öz təkidləri və izahları ilə məni doğru yola yönəldən Hacı Zeynalabdin Tağıyevə borcluyam. Mən həmişə belə hesab etmişəm və edirəm ki, Tağıyev bizim xalqımızın ən böyük maarifçilərindən biri olub"...*

Qlavlit Xəlil Əfəndiyev öz narahatçılığını ifadə edirdi ki, indi Azərbaycanda mədəni-maarifin inkişaf tarixi haqqında yazan ayrı-ayrı müəlliflər Azərbaycan xalqının mədəniyyətinə və maarifinə qayğı göstərmiş Tağıyevin adını çəkməyi özünə borc bilir. O, yazırdı: "Milyonçu Tağıyevi və digər kapitalistləri yeni nəslə guya Azərbaycan xalqının maarif və mədəniyyətinin inkişafına çox qayğı göstərmiş ictimai və mütərəqqi xadimlər kimi təqdim etmək onların adını süni şəkildə tarixdə əbədiləşdirmək, Azərbaycan xalqının "xeyirxahları" kimi onlara hörmət və rəğbət ifadə etmək kökündən səhvdir. Məlumdur ki, Bakıda Tağıyev kimi milyonçular az deyil. Gələcəkdə digər kapitalistlər haqqında da müsbət rəylərin olmayacağına heç bir təminat yoxdur. Bütün bunlar ideoloji məsələlərlə bağlı bizim partiyanın qərarları ilə ziddiyyət təşkil edir". Bütün bunları məruzə edən Qlavlit hesab edirdi ki, Azərbaycan KP MK bu məsələləri müzakirə etməli və bu səpkidə olan nöqsanların aradan qaldırılmasını nəşriyyat və jurnal redaksiyaları rəhbərlərinin diqqətinə çatdırmalıdır.

***Ardı var***



**Professor Cəmil Həsənli**

# Niksonu Kiyevə aparası təyyarənin xarab mühərriki və onun Brejnevlə zarafatı...

Dövlət başçılarının rəsmi səfərləri, bu səfərlər zamanı keşirilən tədbirlər, qarşılanma, yolasalma mərasimləri ilə ölkə vətəndaşları televiziya və mətbuat vasitəsi ilə məlumat alırlar. Çoxlarına elə gəlir ki, siyasi liderlərin səfərləri həmişə əvvəlcədən planlaşdırılmış qaydada dəqiqliyi ilə həyata keçir. Amma yox, bəzən birincilər də bu səfərlər zamanı gözlənilməyən və maraqlı hadisələrlə üzləşirlər.

Belə hadisələrdən biri də Amerika Birləşmiş Ştatlarının prezidenti Riçard Niksonun SSRİ-yə səfəri zamanı baş verib.

1945-ci ildə Franklin Ruzveltin Yalta konfransında iştirakını nəzərə almasaq, Ricard Niksonun bu səfərini ABŞ-ın birinci şəxsinin SSRİ-yə ilk rəsmi səfəri kimi qeyd edə bilərik. Onu da qeyd edək ki, Nikson bundan əvvəl 1959-cu ildə vitse-prezident kimi SSRİ-də səfərdə olub.

Riçard Niksonu Moskvanın Vnukovo-2 aeroportunda SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri Nikolay Podqornı, SSRİ Nazirlər Sovetinin sədri Aleksey Kosıgin və SSRİ xarici işlər naziri Andrey Qromıko qarşılayıblar. Beləliklə, 1972-ci il mayın 22-də ABŞ prezidentinin SSRİ-yə 9 günlük zəngin proqramlı səfəri başlanıb. Proqrama görə, mayın 29-da Riçard Niksonun Kiyevə səfəri də nəzərdə tutulub.

Mayın 29-da Nikson Kosıginin müşayiəti ilə Kiyevə uçmaq üçün Vnukovo-2 hava limanına gəliblər. Protokol qaydalarına görə, burada hər iki ölkənin dövlət



himnləri səsləndirilib. Kiyevə uçuş ABŞ prezidentini Moskvaya gətirən təyyarə ilə deyil, SSRİ-yə məxsus İl-62 təyyarəsi ilə nəzərdə tutulub. Himnlər çalındıqdan sonra Nikson və Kosıgin trapa yaxınlaşanda təyyarənin ekipaj komandiri Kosıginə yaxınlaşıb və mühərriklərdən birinin işə düşmədiyini söyləyib.

Adətən belə hallarda ehtiyat təyyarə uçuşa hazırlanır. Nümayəndələr bundan sonra yaxınlıqdakı digər təyyarəyə miniblər. Bir neçə dəqiqə keçsə də, mühərrikləri işə düşən təyyarə yerindən tərpənməyib. Bu məqamda SSRİ-nin mülki aviasiya naziri Buqayev təyyarəyə daxil olub və bildirib ki, təyyarənin salonunna elektrik enerjisi gəlmir və problemi aradan qaldırmaq üçün vaxt tələb olunur. Kosıgin Niksondan təyyarədən düşməyi xahiş edib və onlar hava limanındakı xüsusi gözləmə zalında bir saata qədər ləngiməli olublar. Nəhayət, bir saatdan sonra təyyarənin uçuşa hazır olması haqqında Kosıginə məruzə ediblər.

Həmin görüşdə iştirak edən Kremlin baş tərcüməçisi Viktor Suxodrev bu xoşagəlməz hadisəni belə xatırlayıb:

"Dövlət məmurları üçün nəzərdə tutulan gözləmə zalında Nikson və nümayəndə heyəti təxminən bir saat gözləmək məcburiyyətində qaldılar. Təmkini ilə fərqlənən Aleksey Kosıgin çox həyəcanlı və əsəbi görünürdü. Həhayət hər şey qaydasına düşdü. Təyyarənin trapına yaxınlaşanda Kosıgin məni yanına çağırdı, üzünü Niksona tutub məndən söylədiklərini tərcümə etməyi xahiş etdi:

- Cənab Nikson, sizcə, mən mülki aviasiya naziri Buqayevi vəzifəsindən azad etsəm, ədalətli qərar çıxarmış olarammı?

Güclü yumor hissinə malik siyasətçi kimi tanınan Nikson gülümsəyərək Kosıginə cavab verdi:

- Cənab baş nazir, (Nikson Kosıginə belə müraciət edirdi) əlbəttə ki, bu ədalətsiz olar. Çünki o, problemi əvvəlcədən görüb. Əksinə, bu sayıqlığa görə ona təşəkkür elan etmək lazımdır. Belə bir vəziyyət mən Afrikaya uçanda da baş vermişdi. Mən onda təyyarənin ekipajına minnətdarlığımı bildirmişdim..."

Riçard Nikson Ukrayna səfərindən sonra yenidən Moskvaya qayıdıb. Siyasi icmalçılar onun SSRİ-yə bu səfərini olduqca səmərəli və hər iki dövlət üçün əhəmiyyəli bir səfər kimi qiymətləndiriblər. Leonid İliç Brejnevlə Riçard Nikson bir sıra mühüm sənədlərə imza atıblar.

Kremldə ali qonağın şərəfinə verilən yekun ziyafətdə iki dövlət başçısının səmimi zarafatları da dünya siyasətçiləri tərəfindən maraqla qarşılanıb. Breynev Niksonun şərəfinə badə qaldıraraq bundan sonra da bütün sahələrdə qarşılıqlı əməkdaşlığın daha inkişaf edəcəyinə əminliyini bildirib.

Zarafat etməyi xoşlayan Nikson ziyafətin sonunda yalnız tərcüməçinin eşidəcəyi tonda Brejnevə müraciət edib:

- Cənab Leonid İliç, biz bir çox mühüm müqavilələrə, sənədlərə imza atdıq. Bunlar hamısı sevindiricidir. Amma sizə bir təklif də verə bilərəm. Əgər gələcəkdə istəsəniz, Amerikada istehsal olunan təyyarələrin SSRİ tərəfindən alınması ilə bağlı da bir müqavilə imzalaya bilərik. Onu da qeyd edim ki, bizim təyyarələrin mühərrikləri dərhal işə düşür və gözləmə zalında heç kimin boş vaxt keçirməsinə ehtiyac qalmır.

Brejnev irad xarakterli bu təklifdən qətiyyən təmkinini pozmayaraq həmkarına özünəməxsus təbəssüm göstərərək cavab verib:

- Cənab Nikson, nəzərə alın ki, təyyarənin mühərrikinin işə düşməməsi heç də texniki problem deyil. Biz bununla ölkəmizə gələn siyasətçilərə əlavə vaxt veririk ki, səfər öncəsi çıxaracağı qərarlar haqqında bir daha düşünsün. Odur ki, sizin gözləmə zalında keçirdiyiniz bir saat vaxt heç də boşuna getməyib. Elə bəlkə də, səfəriniz çərçivəsində sonuncu rəsmi görüşümüzdə əldə etdiyimiz müsbət razılaşmalar elə həmin bir saat ərzində düşündüklərinizin məhsuludur...

# Damansk müharibəsi

## SSRİ və Çin hərbçiləri ovuc içi boyda ərazi üstündə qanlarını Ussuri çayına axıdıblar



1969-cu ildə sahəsi 1 kvadrat kilometrdən də az olan ərazi uğrunda gedən mübarizə nüvə silahlarının tətbiqini gündəmə gətirib, Ussuri çayındakı Damansk adası ilə bağlı SSRİ-nin və Çinin ərazi iddiaları iki ölkə arasında müharibə vəziyyəti yaradıb.

Bu məsələ ilə bağlı kimin haqlı, kimin haqsız olduğu haqqında çoxsaylı fərqli fikirlər səsləndirilib. Damansk adasının kimə məxsus olması ötən əsrin ortalarından mübahisəli məsələyə çevrilib.

Əslində ada ilə bağlı iddialarda Çini haqlı saymaq olar. Belə ki, hələ 1919-cu ildə Paris Sülh Konfransında Pekin müqaviləsi təsdiq ediləndə, sərhəd hər iki tərəfdən eyni məsafə olmaq şərti ilə Ussuri çayı boyunca müəyyənləşdirilib. Ancaq müqavilədə çayda mövcud olan, yaxud da sonralar yarana biləcək qum yataqlarının, adaların kimə məxsusluğu nəzərdə tutulmayıb. Araşdırmaçıların qənaətinə görə, müqavilədəki bu boşluq yanlışlıqdan irəli gəlməyib. Belə hesab olunub ki, təbii resursurlar hansı dövlətin ərazisinə daha yaxın olubsa, həmin dövlətin də ixtiyarında olub. Damansk adası ilə Çinin quru sərhədi arasında isə məsafə cəmisi 50-60 metr təşkil edib.

Kolluqlardan ibarət olan kiçik Damansk adasından çinlilər uzun illər ev heyvanlarının yem yeri kimi istifadə ediblər. Sahildə yerləşən yaşayış məntəqələrinin sakinləri hər dəfə adaya keçəndə sovet sərhədçiləri tərəfindən xəbərdarlıq alıblar. 1960-cı illərin əvvəllərindən başlayaraq isə çinlilərlə sovet sərhədçiləri arasında əlbəyaxa davalar da baş verib. Bir faktı qeyd etmək kifayətdir ki, təkcə 1962-1963-cü illərdə adanın ərazisində tərəflərin 5 mindən artıq insidenti qeydə alınıb.

Bu cür kiçik münaqişələr hər iki tərəfin sərhəddə daha çox hərbi qüvvə yerləşdirməsinə səbəb olub. 1964-cü ildə Çin hakimiyyəti Damanskın rəsmi olaraq Çinə məxsus olmasını SSRİ ilə razılaşdırmaq cəhdi isə heç bir nəticə verməyib.

1969-cu ilin mart ayında iddialar, qarşılıqlı ittihamlar daha da böyüyüb. Belə ki, həmin il mart ayının 2-də sovet sərhədçiləri adaya təxminən 300 nəfərə yaxın çinli hərbçinin keçdiyini müşahidə ediblər. Sonra Nijne-Mixaylovka sərhəd zastavasının rəisi baş leytenant Strelnikov 32 sərhədçi ilə birgə adaya girib. Zastava rəisi çinli hərbçilərə adanı təcili tərk etmək haqqında əmr verib. Əmr atəşlə cavablandırılıb. Çinlilər adada olan zastava rəisini və 32 sərhədçini odlu silahlarla güllələyiblər. Atəş səslərini eşidən qonşu zastavanın şəxsi heyəti zirehli texnikalarla dərhal adaya gəlib. Adada müharibə döyüşlərini xatırladan atışmada 245 nəfər çinli məhv edilib, qalanları qaçmağa müyəssər olub.

Hadisənin səhəri günü SSRİ Çin Xalq Respublikasına etiraz notası göndərib. Amma məsələ təkcə nota ilə bitməyib.

Leonid İliç Brejnevin keçirdiyi fövqəladə müşavirədə əraziyə 135-ci motoatıcı diviziyanın yerləşdirilməsi qərara alınıb. Martın 15-də Çin sərhədçiləri adanı tam nəzarətdə saxlayan sovet hərbçilərinə Damanskı tərk etməyə dair ultimatum veriblər. Heç bir reaksiya olmadıqda Çin hərbçiləri artilleriya ilə sovet hərbçilərinin mövqelərini intensiv atəşə tutublar. Bu hücumdan sonra 135-ci motoatıcı diviziya əməliyyata başlayıb. Qeyd edək ki, Qarabağ savaşından adı hamımıza məlum olan "Qrad" qurğuları ilk dəfə məhz bu münaqişədə istifadə olunub.

Münaqişə zamanı itkilərin nə qədər olduğunu tərəflər müxtəli rəqəmlərlə göstəriblər. SSRİ nin statistikasına görə sovet hərbçilərindən 58 nəfər, Çin tərəfdən isə 800, bəzi mənbələrdə isə 2500-3000 nəfər göstərilib. Çinlilər isə 99 nəfər sovet hərbçisinin, öz tərəflərindən isə 67 nəfərin öldüyünü qeyd ediblər. Xarici mətbuatda da fərqli rəqəmlər əks olunub.

Sözsüz ki, SSRİ rəsmiləri öz hərbi qüdrətlərini nümayiş etdirmək üçün təbliğat maşınından var gücü ilə istidadə ediblər. Hətta dövriyyəyə Çin tərəfindən ada ətrafına on minlərlə hərbçinin toplanması ilə bağlı informasiya da buraxıblar.

Damansk münaqişəsi SSRİ-Çin münasibətlərində böyük gərginlik yaradıb. Brejnevin "gərginliyin artacağı təqdirdə nüvə silahından istifadə qaçılmaz olacaq" fikrinə isə ABŞ sərt reaksiya verib. Ağ Ev bütün hallarda Çini dəstəkləyəcəyini açıq şəkildə bəyan etməkdən çəkinməyib.

Gərginliyin aradan qaldırılmasında, münaqişənin çözülməsində beynəlxalq siyasi arenada kifayət qədər nüfuzlu sima sayılan SSRİ Nazirlər Sovetinin sədri Aleksey Kosıginin böyük rolu olub. 11 sentyabr 1969-cu ildə Pekin rəsmiləri ilə 4 saatlıq müzakirələrdən sonra Kosıgin münaqişənin dondurulması ilə bağlı razılaşma sənədinə imza atmağa müyəssər olub.

22 ildən sonra, 1991-ci ildə ömrünün son günlərini yaşayan SSRİ ilə qarşılıqlı razılaşma ilə Damansk adası rəsmi olaraq Çinin ərazisinə daxil edilib.

Qeyd edək ki, Damansk münaqişəsi zamanı həlak olanlardan biri də sərhəd zastavasında hərbi xidmət keçən azərbaycanlı Tofiq Abbasov olub. Həmçinin Damansk münaqişəsində iştirak edən və münaqişə zamanı həlak olan polkovnik Demokrat Leonov da bakılı olub.

Tarixçilərin ümumi qənaətinə görə, Stalinin hakimiyyəti illərində dostluq münasibətində olan SSRİ və Çinin münasibətlərinin gərginləşməsi, iki sosialist ölkəsinin arasında yaranan konfliktlər Nikita Xruşovun siyasi səriştəsizliyindən irəli gəlib. Leonid İliç Brejnev isə hakimiyyətinin ilk illərində SSRİ-yə xeyir gətirməyən bu "ənənə"ni davam etdirib.

Təqdim edən: İlham Cəmiloğlu

# Paralel

Son səhifə

www.paralel.az
e.mail adresi:
paralel_qazeta@mail.ru

№ 063 (3632) 13 iyul 2023-ci il * İctimai-siyasi qəzet * Qiymәti 50 qəpik


## Mürəbbə tam yetişmiş və sağlam meyvələrdən hazırlanmalıdır



**Ev şəraitində demək olar ki, hamı mürəbbə bişirir. İlk baxışdan bu iş sadə görünsə də, burada diqqət edilməli məqamlar çoxdur. Çünki mürəbbələr müəyyən müddət saxlanılandan sonra istifadə edildiyinə görə konservləşdirilmiş məhsul hesab olunur. Mürəbbələrin hazırlanmasında ilk və ən vacib məqam sanitar-gigiyena qaydalarının gözlənilməsidir. Əllər, istifadə edilən məhsullar və qablar təmiz və steril olmalıdır. Əks halda mürəbbələri istehlak edərkən ciddi fəsadlarla üzləşmək mümkündür.**

AZƏRTAC xəbər verir ki, Qida Təhlükəsizliyi Agentliyinin sektor müdiri Cavidan Quliyev bununla bağlı deyib: *“Mürəbbə hazırlanarkən tam yetişmiş və sağlam meyvələrdən istifadə edilməsi yaxşı olardı, çünki hər hansı xəstəliyə yoluxmuş və ya zədəli meyvələrdən istifadə olunması keyfiyyət göstəricilərinin aşağı düşməsinə gətirib çıxara bilər. Mürəbbə hazırlayarkən bir çox hallarda meyvələrin çəyirdəyi çıxarılmalıdır, çünki çəyirdəyin çıxarılması, çəngəl və ya hansısa bir alətlə meyvələrin üzərində deşiklərin açılması mürəbbədə daha çox şəkərin toplanılmasına, şərbətlə daha çox təmas etməsinə səbəb olur ki, bu da məhsulun daha yaxşı konservləşməsinə səbəb olur”.*

Mürəbbələri hazırlayarkən mütləq istifadə olunan əsas və köməkçi xammallar öz miqdarına uyğun olaraq istifadə edilməlidir, çünki istifadə olunan şəkərin, suyun, meyvənin natamam və ya çox miqdarda olması mürəbbənin xarlamasına və ya turşumasına gətirib çıxara bilər. Bundan başqa mürəbbə bişirərkən temperatur amilinə də xüsusi diqqət yetirilməlidir. *“Mürəbbələri hazırlayarkən əsasən onun üzərində köpük əmələ gələrsə onu götürmək lazımdır, çünki köpük məhsula qarışarsa, onun tərkibində kənar maddələr ola bilər. Başqa bir amil mürəbbə bişirərkən onu çox qarışdırmamaq lazımdır, çünki çox qarışdıranda məhsulun daha çox zədələnməsinə gətirib çıxarır. Yaxşı olar ki, mürəbbənin içərisində olan meyvələr öz tamlığını olduğu kimi qoruyub saxlasın”*,- deyə mütəxəssis bildirib.

Onun dediyinə görə, mürəbbə bişəndən sonra onun soyuma prosesinə də diqqət yetirmək lazımdır: *“Mürəbbələri soyumağa qoyarkən bir çox hallarda onun üzərinə qapaq və ya plastik örtük, bəzən də qəzetlə örtülməsi yolverilməz haldır. Məhsulun içərisində yüksək temperatur hərarət olduğu üçün ağzı kip bağlı qaldığı təqdirdə yenə orda rütubət nəm hala çevrilir və məhsulun içinə yenidən qayıdıb töküldüyü üçün yenə də turşuluğun yaranmasına gətirib çıxara bilər. Kənardan hər hansı zərərvericinin və ya hansısa maddənin düşməməsi üçün tənzif, parça, havakeçirici materialla örtülməsi lazımdır”.*

**Hazır mürəbbələrin saxlanılması da çox əhəmiyyətlidir. Mürəbbələr sərin, günəş şüalarının düşmədiyi yerlərdə saxlanılmalıdır. Mütəxəssislər bildirirlər ki, meyvələr mürəbbə hazırlayan zaman tam bişsə də, insan orqanizmi üçün zəruri olan vitaminlər olmur. Ona görə də qış mövsümündə yeyilməyən meyvələrin mürəbbələrini öz mövsümündə bişirərək istehlak etmək olar.**



## Göz sağlamlığı üçün faydalı olan 12 qida

**Genetik xəstəliklər və son illərdə televizor, telefon kimi elektron əşyaların qarşısında uzun müddət olmaq göz xəstəliklərini artıran əsas səbəblərdir.**

Göz sağlamlığını qorumağın ən vacib yollarından biri düzgün qidalanmadır.

Həkimlər göz sağlamlığına yaxşı gələcək 12 qidanın adını açıqlayıblar. Bildirilir ki, brokoli, qızılbalıq, yerkökü, toxum, kivi, ispanaq, yumurta, badam, qatıq, portağal, çiyələk və göbələk kimi qidalar göz sağlamlığı üçün çox faydalıdırlar.

İndol-3-karbinol, omeqa-3 yağ turşuları, A və E vitaminləri ilə zəngin olan bu qidalar həm xəstəliklərdən qoruyur, həm də xəstəliklərin sağalmasına kömək edir.

## Günəş şüalarının dəridə yaratdığı ləkələr və ondan qorunmaq yolları

**Havalar isindikcə Günəş şüalarının dəriyə təsiri də artır. Günəş vannası və qaralma adlandırılan proses ultrabənövşəyi şüaların təsiri nəticəsində dəri renginin tündləşməsi, dərinin alt qatında melonin piqmentinin toplanmasıdır. Bəzi dəri xəstəliklərinin müalicəsi üçün Günəş şüası məsləhət görülür. Ancaq bu zaman bir sıra məqamlara diqqət göstərmək vacibdir.**



Həkim-dermatoloq Sevinc Məmmədovanın dediyinə görə, Günəş şüalarının təsiri dəri tipindən asılıdır: *“Ağ dəri günəşlənmə zamanı qızartını daha tez götürür və ona görə həmin dəri tipinə mənsub olanlara günəş altında daha az olmaq məsləhət görülür. Günəş yanıqları dərisi nazik olanların epidermis qatında özünü daha dərin göstərir. Epidermis qalın dəri tipinə uyğun olanlarda Günəş ləkələrinin izləri qalmır”.*

İnsanların dərisi dörd tipə ayrılır. Azərbaycanda əhalinin əksəriyyəti ikinci və üçüncü dəri tipinə sahibdir. Bu, daha həssas olan dəri tipi olduğundan günəşlənən zaman yanma ilə nəticələnir. *“Günəşdən yaranan ləkələr melazma adlanır. Elə insanlar var ki, uzun müddət dəri dermatozundan əziyyət çəkir. Hər dəri tipi fərqlidir. Ona görə də hər dəri tipinə uyğun olaraq 50+, 80+ və 100 SPF kremlərindən istifadə etmək tövsiyə olunur. Bununla yanaşı mütləq nəmləndiricilərdən də istifadə edilməlidir ki, dəridə quruluq və qabıqlanma yaranmasın. Təbii ki, Günəş altında olarkən SPF kremləri çəkilməli, sonra isə nəmləndiricidən istifadə edilməlidir”*, - deyə həkim-dermatoloq bildirib.

Nəzərə almaq lazımdır ki, Günəşdən qoruyan vasitələrin ömrü maksimum 2 saatdır. Dərinin nəmliyini, su balansını qorumaq üçün daha çox maye qəbul edilməli və Günəş yağlarından istifadə olunmalıdır.


Təsisçi:
Tapdıq Abbas

Baş redaktor:
Akif Nəsirli

Birinci müavin:
Şahnaz Salehqızı

İnformasiya şöbəsinin müdiri:
Röyal Əsədli

Bölgə müxbirləri:
Vaqif Cəmiloğlu
Sadıq Sadıqlı
İqbal Məmmədov
Əlizadə Nəhmədağaoğlu
İlkin Əsədzadə

Qəzet 16 fevral 2003-cü ildən çıxır.

Ünvan: AZ 1073, Azərbaycan, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, 6-cı mərtəbə "Azərbaycan" nəşriyyatı
Tel: 510 15 07, Fax: 510 15 06
E_mail: paralel_qazeta@mail.ru
Qəzet "Son Dakika" MMC-nin mətbəəsində çap olunub.
Əlyazmalara rəy verilmir və geri qaytarılmır.
Qeydiyyat №257
Sifariş: 2185 Tiraj: 1550